NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR
HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
30 iyun 2026-cı il, çərşənbə axşamı № 6 (75)

# Memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr olunmuş I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı

Naxçıvan Dövlət Universitetində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr olunmuş I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı (ICCHST – Naxçıvan 2026) keçirilib.



Konfrans Naxçıvan Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı, Azərbaycan Turizm və Menecment Universiteti, Macarıstanın Széchenyi István Universiteti, Özbəkistanın Daşkənd Dövlət İqtisad Universiteti, Türkiyənin Qaradəniz Texniki Universiteti, Akdeniz Universiteti, Gümüşhane Universiteti, Ankara Hacı Bayram Veli Universiteti, Pamukkale Universiteti, Bayburt Universiteti və Adıyaman Universitetinin tərəfdaşlığı ilə keçirilib.



Konfransdan əvvəl NDU-nun Memarlıq və mühəndislik fakültəsində təşkil olunan memarlıq sərgisinə baxış keçirilib. Sərgi zamanı Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov tərəfindən NDU-nun rektoru Elbrus İsayevə Azərbaycanın 5 bölgəsinə məxsus xalça ornamentlərindən ibarət döş nişanları hədiyyə olunub.

Öz növbəsində fakültə kollektivi Memar Əcəmi ilə bağlı nəşrləri MDU nümayəndə heyətinə təqdim edib.

Daha sonra qonaqlar Pedaqoji fakültədə nümayiş olunan əl işləri sərgisi ilə tanış olub, İnklüziv Təhsil Mərkəzi, kulinariya, xalçaçılıq və milli geyim otaqlarını ziyarət ediblər. Kampus gəzintisi NDU-nun İncəsənət fakültəsində təşkil olunan rəsm sərgisinə baxışla davam edib.

NDU-nun Konqres mərkəzində keçirilən konfrans Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında bildirib ki, I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransının əsas məqsədi mədəni irsin qorunması və



dayanıqlı turizmin inkişafı sahəsində aparılan müasir elmi-tədqiqatların müzakirəsi, elmi fikir mübadiləsinin təşviqi və bu istiqamətdə beynəlxalq əməkdaşlıqların gücləndirilməsidir.

Rektor vurğulayıb ki, bu gün şəhərsalma və memarlıq sahəsində aparılan işlər, xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində yeni mərhələyə qədəm qoyub. Ölkə Prezidentinin təşəbbüsü ilə "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri reallaşdırılır və müasir şəhərsalma modelinin formalaşmasına xidmət edir. Bu layihələr təkcə Azərbaycan üçün deyil, ümumilikdə Türk dünyası və beynəlxalq təcrübə üçün də əhəmiyyətli nümunədir.

Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov çıxışında innovativ yanaşmalar əsasında universitetlərin nəzəri biliklə yanaşı, həm də praktik və sənaye yönümlü həllər formalaşdıran elmi mərkəzlər kimi fəaliyyət göstərməsinin vacibliyini vurğulayıb. Rektor qeyd edib ki, turizm və xidmət sənayesi ilə



əlaqəli tədqiqatların genişləndirilməsi, sənaye yönümlü layihələrin təşviqi və magistr səviyyəsində hazırlanan dissertasiya işlərinin regional turizm inkişafı, mədəni irsin rəqəmsallaşdırılması kimi tətbiq yönümlü istiqamətlərə yönəldilməsi xüsusi əhəmiyyət daşıyır.

Gümüşhane Universitetinin rektoru Oktay Yıldız çıxışında universitetlərin turizm sahəsində gördüyü işlərin ictimai töhfə baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bu sahədə NDU-nun təcrübəsini yüksək qiymətləndirib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva ölkəmizdə mədəni irsin qorunması, tarixi abidələrin bərpası, turizm potensialının inkişaf etdirilməsi yönündə aparılan işlərdən, bu sahəyə göstərilən dövlət qayğısından bəhs edib.

Video formatda çıxış edən Akdeniz Universitetinin rektoru, professor Özlenen Özkan və Pamukkale Universitetinin rektoru, professor Mahmud Güngör konfransın beynəlxalq əhəmiyyətini yüksək dəyərləndiriblər.

NDU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov qeyd edib ki, konfransın bölmə iclaslarında 6 istiqamət üzrə 17 bölmədə ölkəmizin və dünyanın 40 elm-təhsil müəssisəsindən 212 əməkdaşın 156 məruzəsi, eyni zamanda tələbə bölməsində 10 tələbənin məruzəsi dinləniləcək.

Rəsmi hissənin davamında qarşılıqlı hədiyyələr və plaketlər, universitetin bir sıra əməkdaşına isə təşəkkürnamələr təqdim olunub.

Tədbir milli-mədəni dəyərlərimizi əks etdirən "Sazın sədası" adlı konsert proqramı ilə davam edib və iştirakçılara Azərbaycan aşıq sənətinin zəngin ənənələri təqdim edilib.

*Badəm Əliyeva, Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları*

# Beynəlxalq konfrans iştirakçıları Naxçıvanın tarixi-mədəni irsi ilə tanış olublar

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr olunmuş I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı (ICCHST – NAXÇIVAN 2026) çərçivəsində Naxçıvanda səfərdə olan tərəfdaş universitetlərin nümayəndə heyəti Naxçıvanın tarixi-mədəni irsi ilə yaxından tanış olub.



Əvvəlcə qonaqlar Naxçıvanın möcüzəvi şəfa ocağı olan Duzdağ Müalicə Mərkəzinə səfər ediblər. Gəzinti zamanı duz mədənlərində yaradılmış mərkəzin unikallığı, müalicəvi əhəmiyyəti, burada yaradılan şərait, eləcə də duz divarlarda çəkilmiş rəsm əsərləri ilə bağlı qonaqlara ətraflı məlumat verilib.

Daha sonra qonaqlar Naxçıvanın dünyaca məşhur, möcüzəvi və sirli məkanlarından olan Əshabi-Kəhf ziyarətgahını ziyarət ediblər.

Ardınca iştirakçılar Ordubad rayonunda – Zəngəzur dəhlizinə yaxın ərazidə yerləşən Kotam kəndinə səfər ediblər. Qonaqlar kəndin tarixi keçmişi, coğrafi əhəmiyyəti haqqında məlumat əldə ediblər.

Dübəndidə təşkil olunan çay fasiləsi zamanı qonaqlara Ordubad mətbəxinə xas milli kulinariya nümunələri təqdim olunub.

Ordubadın Sərşəhər və digər qədim məhəllələrinə səfər edən qonaqlar şəhərin tarixi memarlıq mühiti, qədim yaşayış ənənələri və özünəməxsus şəhərsalma xüsusiyyətləri ilə yaxından tanış olub, Qeysəriyyə muzeyini, tarixi məhəllə meydanlarını və qədim küçələri ziyarət ediblər.

I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Kon-



fransı (ICCHST – NAXÇIVAN 2026) çərçivəsində təşkil olunan bu səfər konfransın əsas məqsədlərinə uyğun olaraq mədəni irsin yalnız elmi müstəvidə müzakirəsini deyil, həm də onun real məkanlarda nümayişini təmin edib.

Beləliklə, iştirakçılar Naxçıvanın tarixi və mədəni dəyərləri ilə birbaşa yaxından tanış olub, dayanıqlı turizm yanaşmalarının tətbiqini yerində müşahidə etmək imkanı əldə ediblər.

# Milli Qurtuluş Gününə həsr olunmuş respublika konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Naxçıvandan başlayan qurtuluş məfkurəsi: Heydər Əliyev yolu və müasir Azərbaycan" mövzusunda respublika konfransı təşkil olunub. Konfrans Naxçıvan Dövlət Universiteti, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı, Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının birgə təşkilatçılığı ilə keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucaldılan abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad olunub. Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib, Ulu Öndərin Naxçıvan dövründəki fəaliyyəti və dövlətçilik xidmətlərini əks etdirən eksponatlarla tanışlıq olub.











Ardınca NDU-nun İncəsənət fakültəsində Milli Qurtuluş Gününə həsr olunmuş sərgiyə baxış keçirilib.

Konfransa başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş videoçarx izlənilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, müasir Azərbaycanın inkişafının əsasında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs dayanır və bu strateji xətt bu gün uğurla davam etdirilir. Rektor qeyd edib ki, 1993-cü ilə qədər ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslər fonunda Heydər Əliyevin Naxçıvan dövründə həyata keçirdiyi uzaqgörən siyasət bölgənin Azərbaycanın tərkibindən ayrılması təhlükəsinin qarşısını alıb, mühüm siyasi və iqtisadi qərarların qəbuluna zəmin yaradıb. Elbrus İsayev Ulu Öndərin Naxçıvan Dövlət Universitetinə daim xüsusi diqqət və qayğı ilə yanaşdığını, universitetdə iki dəfə olduğunu və ali təhsil ocağının gələcək inkişafı ilə bağlı mühüm qərarlar qəbul etdiyini diqqətə çatdırıb.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov və YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli çıxışlarında bildiriblər ki, 15 İyun – Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin tarixində mühüm dönüş nöqtəsi olmaqla ölkədə sabitlik və inkişafın əsasını qoyub. Qeyd olunub ki, Naxçıvan Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətində və Yeni Azərbaycan Partiyasının yaranması prosesində xüsusi yer tutur. Çıxışçılar milli qurtuluş ideyala rının, milli dövlətçilik dəyərlərinin və vətənpərvərlik ruhunun gənc nəslə aşılanmasının əhəmiyyətini vurğulayıblar.



Çıxışlardan sonra Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib və YAP-ın himni səsləndirilib.

Konfrans Azərbaycan Respublikasının Əməkdar artisti, dosent Mübariz Əsgərovun bədii rəhbəri olduğu konsert proqramı ilə davam edib. Konsert proqramında "Şan yerimiz", "Alagöz", "Məşəl kimi yanan ürək" və "Sən elə bir zirvəsən" kimi musiqi nömrələri səsləndirilib.

Əsərlər Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin müşayiəti ilə Prezident mükafatçıları İlkin Abdullayev və İsrafil Qibləliyev, Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov və Gülyanaq Fərzəliyevanın ifasında təqdim olunub.

Tədbir iştirakçılarda xoş təəssürat oyadıb, maraqlı anlarla yadda qalıb.

# "Zirvəyə gedən yol" adlı solo konsert

Naxçıvan Dövlət Universitetində NDU nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kollecinin III kurs tələbəsi Bayram Hüseynovun Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş "Zirvəyə gedən yol" adlı solo konserti keçirilib.



Tələbə haqqında qısa məlumat verildikdən sonra konsert proqramına start verilib. Hüseynov Bayram müxtəlif janr və üslubları əhatə edən musiqi nömrələri ilə çıxış edib. Tədbirin konsertmeysterləri VII Respublika müsabiqəsi laureatı Türkan Əzimova və respublika, eləcə də beynəlxalq müsabiqələr laureatı Aysel Həsənova olublar.

Proqramda Tofiq Quliyevin "Qaytağı", "Sən mənimsən, mən sənin" və Bəxtiyar filmindən fraqmentlər, Tofiq Bakıxanovun "Tar və orkestr üçün Konsert №3" əsərinin I hissəsi, Ramiz Mirişlinin "Oxu, bülbül", Süleyman Ələsgərovun "Daimi hərəkət", muğam "Bayatı-Şiraz", Dinikunun "Mart yallısı", Sevil Əliyevanın "Ana" və Azər Rzayevin "Qaytağı" əsərləri ifa olunub.

Tədbirin sonunda NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov çıxış edərək gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi istiqamətində NDU-da həyata keçirilən tədbirlərdən danışıb, tələbəni təbrik edib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Azərbaycanın tanınmış ustad tarzəni, Əməkdar mədəniyyət işçisi və Prezident təqaüdçüsü Əkrəm Məmmədli, eləcə də tələbənin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi İlqar Hüseynov çıxışlarında Hüseynov Bayramın uğurlarını yüksək qiymətləndirərək onun ifaçılıq bacarığını xüsusi vurğulayıblar. Çıxışçılar milli musiqi irsinin qorunması və tar sənətinin gənc nəsillər arasında təbliğinin vacibliyindən bəhs edərək bu istiqamətdə belə konsertlərin keçirilməsinin əhəmiyyətindən danışıblar.






Konsert proqramı dinləyicilər tərəfindən maraqla qarşılanıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Vəkillər Kollegiyasının nümayəndə heyəti ilə görüş keçirilib

Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Respublikası Vəkillər Kollegiyasının nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub. Nümayəndə heyəti universitetin rektoru Elbrus İsayev və Hüquq fakültəsinin tələbələri ilə görüşüb.

Tədbir zamanı qonaqları salamlayan NDU-nun rektoru Elbrus İsayev universitetin Hüquq fakültəsinin formalaşma tarixi, fəaliyyəti və son illərdə əldə etdiyi inkişaf göstəriciləri barədə məlumat verib. Rektor Vəkillər Kollegiyası ilə qurulan əməkdaşlığı yüksək qiymətləndirərək iki qurum arasında imzalanmış memorandumun tələbələrin praktiki biliklərinin artırılmasına, peşəyönümlü hazırlığının gücləndirilməsinə və gələcək hüquqşünasların yetişdirilməsinə mühüm töhfə verdiyini bildirib.



Qeyd olunub ki, son illərdə gənclərin vəkillik peşəsinə marağı əhəmiyyətli dərəcədə artıb və bu sahəni seçənlərin sayı ildən-ilə çoxalır. Bu isə ölkədə vəkillik institutunun nüfuzunun yüksəldiyini və həyata keçirilən islahatların müsbət nəticələr verdiyini göstərir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək vəkillik peşəsinin cəmiyyətdəki rolu və hüququn aliliyinin təmin edilməsinin əhəmiyyətindən danışıb. Sədr qeyd edib ki, kollegiya tərəfindən ölkədə hüquq fakültələri fəaliyyət göstərən bütün ali təhsil müəssisələri, o cümlədən Naxçıvan Dövlət Universiteti ilə Əməkdaşlıq Memorandumları imzalanıb. Bu əməkdaşlıq çərçivəsində tələbələrin vəkil qurumlarında təcrübə keçməsi və müxtəlif hüquqi layihələrdə iştirak etməsi üçün geniş imkanlar yaradılıb.

Bildirilib ki, kollegiyanın təşəbbüsü ilə keçirilən intellektual yarışlarda, təqaüd proqramlarında və istehsalat təcrübələrində Naxçıvan Dövlət Universitetinin tələbələri də fəal iştirak edib. Bu fəaliyyətlər onların



hüquqi biliklərinin dərinləşdirilməsinə, praktiki bacarıqlarının inkişafına və peşəkar formalaşmasına mühüm töhfə verib.

Anar Bağırov gələcəkdə də Naxçıvan Dövlət Universitetinin tələbələri üçün xüsusi təqaüd proqramlarının ayrılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, bu təşəbbüs hüquq təhsili alan gənclərin bu sahəyə təşviq olunması və gələcək hüquqşünas kadrların hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır.

Sədr çıxışında Naxçıvan Dövlət Universiteti Hüquq fakültəsinin son illərdə ölkənin hüquq sisteminə dəyərli töhfələr verdiyini, peşəkar və savadlı hüquqşünaslar yetişdirdiyini qeyd edib. Bildirilib ki, fakültə artıq ixtisaslı hüquq kadrlarının formalaşdığı mühüm təhsil və hazırlıq mərkəzlərindən birinə çevrilib.



Daha sonra nümayəndə heyəti universitetin infrastrukturu, auditoriyaları, tədris imkanları və tələbələr üçün yaradılmış müasir akademik mühitlə tanış olub. Qonaqlara tədris prosesi, Hüquq fakültəsinin fəaliyyəti, maddi-texniki bazası və inkişaf perspektivləri barədə ətraflı məlumat verilib.

Daha sonra universitetin Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə tərəfindən gələcəkdə yaradılması nəzərdə tutulan Hüquqi Təcrübə və Tədqiqat Mərkəzi haqqında təqdimat edilib. Təqdimatda bildirilib ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyası ilə Naxçıvan Dövlət Universitetinin birgə əməkdaşlığı çərçivəsində fəaliyyət göstərəcək mərkəzin əsas məqsədi hüquq təhsili alan tələbələrin nəzəri biliklərinin praktik bacarıqlarla möhkəmləndirilməsi, onların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi və hüquqi tədqiqat fəaliyyətinə cəlb olunmasıdır.

Ardınca Anar Bağırov Hüquq fakültəsinin tələbələri üçün ustad dərsi keçib. Dərsdə vəkillik institutunun inkişaf mərhələləri, son illər həyata keçirilən islahatlar, əhalinin keyfiyyətli hüquqi yardıma çıxış



imkanlarının genişləndirilməsi, regionlarda vəkillik xidmətlərinin əlçatanlığının artırılması və gənc hüquqşünasların peşəyə cəlb olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Anar Bağırov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hüquq sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasət nəticəsində vəkillik institutu yeni inkişaf mərhələsinə qədəm qoyub. Sədr tələbələrə müraciət edərək mövcud inkişaf mühitinin onların peşəkar fəaliyyətə hazırlanması və cəmiyyətə layiqli töhfə verməsi üçün geniş imkanlar yaratdığını vurğulayıb.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı olaraq müxtəlif hədiyyə və kitablar təqdim edilib.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# DIRNA layihəsi çərçivəsində beynəlxalq tədbir

Naxçıvan Dövlət Universitetində Avropa İttifaqının Erasmus+ proqramı çərçivəsində həyata keçirilən "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) layihəsi çərçivəsində beynəlxalq seminar və təlim proqramı təşkil olunub.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev DIRNA layihəsinin Azərbaycanda açıq elm prinsiplərinin təşviqi və tədqiqat potensialının inkişafı baxımından əhəmiyyətli platforma olduğunu vurğulayıb. Rektor qeyd edib ki, layihə universitetlər arasında elmi əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir.

Daha sonra layihənin koordinatoru olan Xəzər Universitetinin rektoru Raziyə İsayeva çıxışında DIRNA layihəsinin Azərbaycanda açıq elm mühitinin formalaşması və universitetlərin tədqiqat potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, layihədə 8 Azərbaycan və 3 Avropa ali təhsil müəssisəsinin bir araya gəlməsi beynəlxalq əməkdaşlığın genişlənməsinə və qabaqcıl təcrübələrin paylaşılmasına əlverişli şərait yaradır. Bu gün layihənin sonuncu seminarı olduğunu vurğulayan rektor həmçinin layihə çərçivəsində görülən işlərdən, əldə olunan nəticələrdən danışıb.

Hibrid formada təşkil olunan seminarda İtaliyalı ekspertlərdən Francesco Tarquni "Açıq elm alətləri", Graza Di Bartolomeo isə "Rəqəmsal kitabxanalarda elektron kolleksiyaların formalaşdırılması və idarə olunması" mövzularında məruzələrlə çıxış ediblər.

Növbəti sessiyada Finlandiyadan olan tərəfdaşların təcrübəsi əsasında açıq giriş və institusional repozitoriyalar mövzusu müzakirə olunub. Sessiyada açıq giriş siyasətinin gündəlik repozitoriya idarəçiliyində rolu, açıq elmin tətbiqi, metadata idarəçiliyinin əhəmiyyəti, eləcə də süni intellekt və yeni texnologiyaların bu sahədə yaratdığı imkanlar barədə ətraflı məlumat verilib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində musiqili proqram təqdim olunub. Tədbir Xəzər Universitetinin 35 illik yubileyinə həsr olunmuş xüsusi sessiya ilə davam edib. Universitet rektorlarının iştirakı ilə panel müzakirəsi keçirilib, ali təhsildə beynəlxalq əməkdaşlıq, açıq elm siyasəti və elmi fəaliyyətin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Lahiyənin ikinci günündə Türkiyədən olan mütəxəssis Gültekin Gürdal "Akademik nəşriyyatda inqilab: Açıq giriş və süni intellekt" mövzusunda təqdimatla çıxış edib. Daha sonra o, "Metadata keyfiyyəti və beynəlxalq standartlar" mövzusunda məruzə ilə iştirakçıları beynəlxalq təcrübə və müasir yanaşmalar barədə məlumatlandırıb.

Ardınca Gültekin Gürdal, Begüm Yavuz və Gönül Kafalı Canın iştirakı ilə "Tədqiqatların gücləndirilməsi: Açıq girişdən məlumatların idarə olunmasına qədər" mövzusunda təlim sessiyası keçirilib. Sessiyada açıq giriş siyasəti, elmi məlumatların idarə olunması, metadata standartlarının tətbiqi və tədqiqat fəaliyyətində rəqəmsal həllərin rolu geniş şəkildə müzakirə olunub.







Qeyd edək ki, DIRNA layihəsi Azərbaycan universitetlərində açıq giriş institusional repozitoriyalar şəbəkəsinin yaradılması, elmi nəticələrin səmərəli idarə olunması və tədqiqat fəaliyyətinin keyfiyyətinin artırılması məqsədi daşıyır.

# NDU nəzdində Gimnaziyada “Məzun – 2026”

Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziyada 2025-2026-cı tədris ilinin məzunlarına həsr olunmuş “Məzun – 2026” tədbiri keçirilib. Tədbirdə universitet rəhbərliyi, gimnaziyanın pedaqoji kollekti-



vi, valideynlər və qonaqlar iştirak ediblər. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Ümummilli Lider Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev məzunları təbrik edərək onlara gələcək həyatlarında uğurlar arzulayıb. Daha sonra gimnaziyanın direktoru Nazim Rəhimov çıxış edərək məzunların qazandıqları nailiyyətlərdən, müəllimlərin fədakar əməyindən və valideynlərin dəstəyindən bəhs edib.




Məzunların valideynləri adından çıxış edən İlham Yaqublu məzunlarla öz xoş arzularını bölüşüb.

Tədbirin bədii hissəsində VI və VII sinif şagirdlərinin xor çıxışları, məzunların musiqi nömrələri, rəqs kompozisiyaları və müxtəlif səhnəciklər təqdim olu-



nub. Yüksək nəticələri ilə seçilən məzun Rəvan Yaqublu saz ifası ilə iştirakçıların rəğbətini qazanıb. Məzunların təqdim etdiyi musiqi və rəqs nömrələri tədbirə xüsusi rəng qatıb.



Tədbirin ən yaddaqalan məqamlarından biri də gimnaziyanın ənənəsinə uyğun olaraq Azərbaycan Dövlət Bayrağının XI sinif şagirdləri tərəfindən X sinif şagirdlərinə təhvil verilməsi mərasimi olub. Bu mərasim məktəbin dəyərlərinin və uğurlu ənənələrinin gələcək nəsillərə ötürülməsinin rəmzi kimi böyük maraqla qarşılanıb.

Sonda məzunların və onların uğurlarında xüsusi əməyi olan müəllimlərin təltifetmə mərasimi keçirilib. Məzunlara diplom və fəxri fərmanlar təqdim olunub, xatirə şəkilləri çəkdirilib. Duyğulu anlarla yadda qalan “Məzun – 2026” tədbiri əsl bayram ovqatı ilə başa çatıb.

# NDU nəzdində Beynəlxalq Kembric Məktəbinin təşkilatçılığı ilə “Məktəblilərin Yaradıcılıq Günü” və birinci sinif şagirdlərinin “Əlifba bayramı”na həsr olunmuş tədbir keçirilib

Tədbirdən əvvəl birinci sinif şagirdlərinin sulu boya ilə çəkdikləri rəsm işlərindən ibarət sərgiyə baxış keçirilib. Ardınca Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirin rəsmi hissəsində çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq belə tədbirlərin uşaqların yaradıcılıq qabiliyyətlərinin formalaşmasında, özünəinamının artırılmasında və istedadlarının üzə çıxarılmasında mühüm rol oynadığını vurğulayıb. Rektor məktəbin fəaliyyətini, tətbiq olunan müasir tədris metodlarını, şagirdlərin yaradıcı və analitik düşünmə bacarıqlarının inkişafına xidmət edən layihələri yüksək qiymətləndirib. Bildirib ki, məktəbdə şagirdlər ingilis dilində təhsil alsalar da, azərbaycançılıq ideologiyasına, milli adət-ənənələrə və mənəvi dəyərlərə sadiqlik əsas prioritet kimi qorunur. Elbrus İsayev birinci sinif şagirdlərini Əlifba bayramı münasibətilə təbrik edərək onlara gələcək təhsil həyatlarında uğurlar arzulayıb.

Sonra Naxçıvan Muxtar Respublikasının Elm və Təhsil naziri Elxan Nəcəfov çıxış edərək şagirdləri təbrik edib, onların hərtərəfli inkişafında müasir təhsil mühitinin və yaradıcı fəaliyyətlərin əhəmiyyətindən danışıb. Nazir qeyd edib ki, bu cür tədbirlər uşaqların istedadlarının üzə çıxarılmasına, yaradıcılıq bacarıqlarının inkişafına, həmçinin onların milli və ümumbəşəri dəyərlər əsasında



formalaşmasına mühüm töhfə verir. Bildirib ki, təhsil yalnız akademik biliklərin mənimsədilməsi ilə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin hərtərəfli inkişafını da əhatə edir.

Beynəlxalq Kembric Məktəbinin direktoru Bayram Əliyev çıxışında məktəbin bu il ərzində əldə etdiyi uğurlardan və qarşıdakı dövr üçün müəyyənləşdirilən prioritet istiqamətlərdən bəhs edib. O, tədrisin keyfiyyətinin daha da yüksəldilməsi və beynəlxalq təcrübənin genişləndirilməsi məqsədilə xarici müəllimlərin məktəbə cəlb olunması istiqamətində görülən işləri diqqətə çatdırıb.

Ardınca məktəbin akademik koordinatorları Fabian Chavez və Angela Lara çıxış edərək bildiriblər ki, “Məktəblilərin Yaradıcılıq Günü” şagirdlərin bacarıqlarını, incəsənətə olan sevgilərini və yaradıcılıq potensiallarını nümayiş etdirdikləri xüsusi bir gündür. Qeyd olunub ki, Beynəlxalq Kembric Məktəbi müasir təhsil standartlarını, innovativ yanaşmaları, milli-mənəvi dəyərləri və yaradıcı təfəkkürün inkişafını öz fəaliyyətində uğurla birləşdirir.









Övladlarının yaradıcılıq uğurlarına şahidlik edən valideynlər adından çıxış edən Emil Səfərov məktəbdə yaradılan şəraitə, tədris prosesində göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Tədbirin bədii hissəsində Beynəlxalq Kembric Məktəbinin birinci sinif şagirdlərinin ifasında “Wollerman” və “Macarena” rəqsləri nümayiş olunub. Şagirdlərin hazırladıqları “Məktəbdə bir gün” adlı pantomim tamaşası maraqla qarşılanıb. “Əhməd haradadır?” filminin musiqi sədaları altında təqdim edilən “Üzümçülər” rəqsi, eləcə də vokal qrupunun ifasında səslənən “Sizə salam gətirmişəm” mahnısı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Bədii hissə çərçivəsində məktəbin 6-cı sinif şagirdi, müxtəlif incəsənət müsabiqələrinin laureatı Murad Qafarov fortepianoda Üzeyir Hacıbəylinin “Arazbarı” əsərini ifa edib. Ardınca görkəmli bəstəkar Tofiq Quliyevin musiqisi əsasında hazırlanmış vals rəqsi təqdim olunub.

Tədbirin bədii hissəsi “Sükutun səsi” adlı final kompozisiyası ilə başa çatıb. Vətənpərvərlik ruhunda hazırlanan kompozisiyada uşaqların vətənə məhəbbəti, milli-mənəvi dəyərlərə bağlılığı və gələcəyə inamı bədii vasitələrlə ifadə olunub.

Sonda tədris ili ərzində yüksək nəticə göstərən şagirdlər təltif olunub.




*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# KİTAB TƏQDİMATLARI

## NDU-da yeni kitab təqdimatı – “Tibbi botanika”

NDU Elmi Kitabxanasında “Biologiya” kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Mürsəl Seyidovun müəllifi olduğu “Tibbi botanika” adlı dərs vəsaitinin təqdimatı keçirilib. Tədbiri giriş sözü ilə açan Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, biologiya üzrə elmlər doktoru, dosent Ənvər İbrahimov son dövrlər təbiət elmləri sahəsində yazılmış elmi-metodiki ədəbiyyatları yüksək qiymətləndirib.






Daha sonra Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan müavini, biologiya üzrə fəlsəfə doktoru, dosent Hilal Qasımov, “Biologiya” kafedrasının müdiri, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Bəhruz Bayramov, “Baytarlıq təbabəti” kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov, “Biologiya” kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Səfurə Babayeva çıxış edərək dərs vəsaiti haqqında fikirlərini bildiriblər. Dərs vəsaitinin botanika elminin son nailiyyətləri nəzərə alınmaqla yazıldığı və müasir elmi yanaşmaları özündə əks etdirdiyi vurğulanıb.

Qeyd olunub ki, kitabda tibbi botanikanın mühüm istiqamətləri araşdırılıb, bitkilərin tərkibindəki fizioloji aktiv maddələr, bitki ehtiyatlarından istifadə, yem bitkiləri, zəhərli bitkilər, bitkilər aləminin qanunauyğunluqları, bitkilərin vegetativ və generativ orqanları geniş izah olunub.

Sonda çıxış edən müəllif tədbir təşkilatçılarına öz minnətdarlığını bildirib.





## “Maşınşünaslığın əsasları” adlı dərs vəsaitinin təqdimatı

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Nəqliyyat mühəndisliyi və texniki fənlər” kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru Asəf Əliyev, həmin kafedranın baş müəllimləri Yadulla Həziyev və Səyyad Vəliyevin həmmüəllifi olduqları “Maşınşünaslığın əsasları” adlı dərs vəsaitinin təqdimatı keçirilib.




Təqdimat mərasimində Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri, biologiya elmləri doktoru, dosent Ənvər İbrahimov, Memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov kitab haqqında fikirlərini bölüşərək bildiriblər ki, “Maşınşünaslığın əsasları” dərs vəsaiti ali təhsil müəssisələrinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələr, magistrantlar və mühəndis-texniki sahədə çalışan mütəxəssislər üçün dəyərli vəsait olacaq.

“Nəqliyyat mühəndisliyi və texniki fənlər” kafedrasının müdir əvəzi Gülşən Məmmədova, həmin kafedranın müəllimləri Elşən Nəcəfov, Turxan Orucov, Fərahim Məmmədov və digər çıxışçılar yeni nəşrin elmi və tədris əhəmiyyətindən danışıblar.

Çıxışlarda qeyd olunub ki, 8 fəsildən ibarət olan dərs vəsaitində maşınşünaslığın əsasları fənninin məzmunu, məqsəd və vəzifələri, inkişaf tarixi, maşınqayırmada istifadə olunan materiallar və onların emalı üsulları, maşın hissələrinin iş qabiliyyəti meyarları, reduktorlar və digər mühüm mövzular əhatə olunub.

Eyni zamanda vurğulanıb ki, vəsaitdə maşın hissələrinə verilən texnoloji tələblər, maşın detallarının hazırlanması, mexanizmlərin və maşınların qurașdırılması, müxtəlif növ birləşmələr – pərçim, qaynaq, yiv, paz, şlis, çivi və profilli birləşmələr, eləcə də ötürmələr – sürtünmə, qayış, pazvarı qayış, dişli çarx, sonsuz vint və zəncir ötürmələri geniş şəkildə izah edilib.



Bununla yanaşı, oxlar, vallar, yaylar, sürüşmə və diyirlənmə yastıqları, muftalar, reduktorlar və onların iş xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Sonda kitabın müəllifləri Asəf Əliyev, Yadulla Həziyev və Səyyad Vəliyev göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.





*Badəm Əliyeva*
*Media və ictimaiyyətlər əlaqələr şöbəsinin əməkdaşı*

# Müasir Azərbaycan dövlətçiliyinin tarixi dönüş nöqtəsi və milli qurtuluş fəlsəfəsinin strateji əhəmiyyəti

15 İyun – Milli Qurtuluş Günü Azərbaycan Respublikasının tarixində müstəsna əhəmiyyətə malik bir dönüş nöqtəsidir. Bu gün Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması naminə ölkənin ağır böhrandan çıxarılması naminə Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının başlanğıcı kimi qeyd olunur. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəni parçalanma və məhv olma təhlükəsindən xilas edərək sabitlik və inkişaf yoluna çıxarmışdır. Azərbaycanın müasir dövlətçilik tarixi məhz bu tarixdən etibarən yeni və parlaq bir mərhələyə qədəm qoymuşdur.

Ulu Öndər Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosundakı vəzifələrindən istefa verməsi ilə Azərbaycanda problemlər dövrü başlamışdır. Onun istefasından qısa müddət sonra erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması məsələsini qaldırmış və Azərbaycan xalqının faciələri başlamışdır. Tarixi faktlar göstərir ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, erməni millətçiləri bu cür əməllərə cürət etməzdilər. Müstəqilliyin ilk illərində Azərbaycan ciddi daxili və xarici təhdidlərlə üz-üzə qalmışdı. AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin qanunsuz əməlləri, separatçılıq meylləri və vətəndaş müharibəsi təhlükəsi Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdu. Dövlət əmlakının talan edilməsi, iqtisadiyyatın çökməsi və əhalinin sosial durumunun ağırlaşması ölkədə xaos və anarxiyanın hökm sürməsinə səbəb olmuşdu. Həmçinin dövlət idarətməsində təcrübəsiz şəxslərin vəzifəyə gətirilməsi suverenliyə təhdid yaratmış, beynəlxalq münasibətlər korlanmış və Azərbaycan təcrid olunmuş vəziyyətə düşmüşdü. Bu dövrdə 20 Yanvar, Xocalı faciələri yaşanmış, Laçın və Şuşa kimi strateji ərazilər xəyanət nəticəsində işğal edilmişdi.

1993-cü ildə ölkədə yaranmış dərin böhran şəraitində Azərbaycan xalqı yeganə çıxış yolunu Ulu Öndər Heydər Əliyevin simasında gördü. Xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edən Heydər Əliyev, 1993-cü il iyunun 9-da Bakıya qayıtdı. Bu qayıdış Azərbaycanı ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı. O həyatını təhlükə altında qoyaraq Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını alaraq ölkədə sabitliyi bərpa etdi. Heydər Əliyevin qayıdışı ilə Azərbaycan dövlətçiliyinin xilası başladı. O dövlətin və dövlətçiliyin qorunması məsuliyyətini öz üzərinə götürərək ölkədə vətəndaş həmrəyliyini və sabitliyi təmin etdi. Onun liderliyi sayəsində asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa və vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi və münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlara başlandı. İdarəetmə sistemi formalaşdırıldı, insanlara öz dövlətinə inam qaytarıldı. Həmçinin neft müqavilələri imzalanaraq Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişi cəhdlərinə son qoyuldu, ilk parlament seçkiləri keçirildi və referendum yolu ilə Konstitusiya qəbul edildi. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı və ölkənin dünya birliyinə inteqrasiyası prosesi başladı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. Bu tarixi hadisə Azərbaycanın dərin ictimai-siyasi və iqtisadi böhrandan xilasının, sürətli inkişafın sarsılmaz təməllərinin qoyulmasının rəsmi başlanğıcı oldu. 1997-ci ilin iyun ayında Milli Məclis 15 iyun gününü bayram günü elan edərək bu tarixi hadisənin əhəmiyyətini bir daha təsdiqlədi. Heydər Əliyev dərin, universal biliyi, qətiyyəti, işgüzarlığı, uzaqgörənliyi və mahir diplomatik bacarıqları ilə peşəkar dövlət xadimi kimi tariximizə silinməz izlər qoymuşdur.

1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsini qoymuşdur. Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoymuş, beynəlxalq aləmdə öz prinsipial mövqeyini nümayiş etdirmiş və böyük hörmətə malik olmuşdur. Yeni Azərbaycan Partiyasının 1992-ci ildə Naxçıvanda yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir və zənginləşdirir. Onun rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən və beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilmişdir. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Heydər Əliyevin ən böyük arzusu – Şuşa, Qarabağ və Xankəndini azad görmək Prezident İlham Əliyev tərəfindən reallaşdırılmışdır. Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş Azərbaycandır.

Yekun olaraq qeyd etmək lazımdır ki, 15 İyun – Milli Qurtuluş Günü Azərbaycan tarixində bir dönüş nöqtəsi olaraq ölkənin müstəqilliyinin qorunması, sabitliyin bərpası və gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində Azərbaycan parçalanma təhlükəsindən xilas olmuş, dövlətçilik ənənələri bərpa edilmiş və beynəlxalq arenada öz layiqli yerini tutmuşdur. Bu gün Heydər Əliyev irsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanın daha da güclənməsinə və çiçəklənməsinə xidmət edir. Milli Qurtuluş Günü Azərbaycan xalqının qürur mənbəyi və dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş tarixi bir gündür. Məhz bu günün gətirdiyi sabitlik və qurtuluş sayəsində Azərbaycan bu gün öz ərazi bütövlüyünü tam təmin etmiş qüdrətli bir dövlət kimi dünya birliyində ucalmaqdadır.



*Gülxarə Əhmədova*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*



## HÜQUQİ MAARİFLƏNDİRMƏ

# Oxuya-oxuya işləmək: Tələbənin əmək bazarında hüquq bələdçisi

Universitet illəri təkcə mühazirə otaqları və imtahanlardan ibarət deyil, həm də gələcək karyeraya ilk addımların atıldığı dövrdür. Bu gün bir çox tələbə təhsil ala-ala işləyir və ya təcrübə proqramlarına qoşulur. Bəs tələbə olmaq onları əmək bazarında hüquqsuz edirmi? Tələbələr aldadılmamaq və haqlarını tələb etmək üçün nələri bilməlidirlər? Bu gün universitetimizin İnsan resursları və hüquq şöbəsinin müdir müavini, baş hüquqşünası, müdir vəzifəsini müvəqqəti icra edən ***Şəbnəm Hüseynova*** ilə məhz bu mövzuda danışdıq.

***– Xoş gördük sizi, Şəbnəm xanım. Gəlin ən böyük problemdən başlayaq. Tələbələr adətən "təcrübə proqramı" adı altında aylarla maaşsız işlədilirlər. Hüquqi cəhətdən "öyrənmək müqabilində pulsuz işləmək" nə dərəcədə doğrudur?***

Xoş gördük. Çox ağrılı bir nöqtəyə toxundunuz. Əmək qanunvericiliyinə görə, əgər bir şəxs müəssisədə real iş görürsə, şirkətə fayda verirsə, onun əməyi mütləq qiymətləndirilməlidir. Təcrübə proqramları könüllülük fəaliyyəti ilə qarışdırılmamalıdır. Əgər tələbə sadəcə "işi öyrənir" deyib tam iş günü rejimində real tapşırıqları yerinə yetirirsə və ona heç bir ödəniş edilmirsə, bu, əmək istismarı sayılır. Azərbaycan Respublikasının Əmək Məcəlləsində 30 dekabr 2025-ci il tarixində edilən dəyişikliyə əsasən Məcəllənin 47-ci maddəsinə ğ bəndi əlavə edilmişdir. Həmin əlavə edilən bəndə əsasən təhsilalanların istehsalat təlimi və təcrübəsi keçdiyi hallarda müddətli əmək müqaviləsi bağlanmalıdır. Əks təqdirdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmə- dən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir. Tələbələrə tövsiyəm odur ki, təcrübəyə başlamazdan əvvəl tərəflər arasında öhdəlikləri və (əgər varsa) ödənişi tənzimləyən yazılı bir müqavilə tələb etsinlər.

***– Bəs dərslərlə işi eyni vaxtda çatdırmaq istəyənlər? Qanunvericilikdə tələbələr üçün hər hansı güzəşt və ya xüsusi iş saatları nəzərdə tutulubmu?***

Bəli, qanunvericilik təhsil alan işçiləri qoruyur. Əgər tələbə rəsmi işləyirsə, onun iş vaxtının qısaldılması və ya dərslərinə uyğun olaraq qrafik müəyyən edilməsi mümkündür. Ən əsası Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən tələbələr işəgötürənlə əmək münasibətlərində olmaqla yanaşı, oxuyan gənclərə sessiya (imtahan) dövründə imtahanlara hazırlaşmaq və onları vermək üçün ödənişli yaradıcılıq və ya təhsil məzuniyyətləri verilməlidir. Yəni işəgötürən sizə "ya imtahan, ya iş" şərti qoya bilməz, bu, qanun pozuntusudur.

***– "Sınaq müddəti" bəhanəsi ilə tələbələrin bir-iki ay işlədilib, sonra maaş verilmədən işdən çıxarılması hallarına tez-tez rast gəlirik. Bunun qarşısını necə almaq olar?***

Bu, əmək bazarının ən böyük "fırıldaqlarından" biridir. Qanun deyir ki, işçi sınaq müddəti ilə işə götürülsə belə, ilk gündən onunla əmək müqaviləsi bağlanmalıdır. Sınaq müddəti müqavilənin daxilində qeyd olunur. Müqaviləsiz keçən hər gün qeyri-qanunidir. Əgər sizə "1 ay sınaq müddətindir, yaxşı bilsək, sonra müqavilə " deyirlərsə, bilin ki, böyük ehtimalla həmin ayın sonunda maaşınızı ala bilməyəcəksiniz. Şifahi vədlərə inanmayın, sizinlə işəgötürən arasında əmək münasibətləri rəsmiləşdirilməlidir.



***– Son olaraq, hazırda iş axtaran və ya işləyən tələbə yoldaşlarımıza hüquqi baxımdan ən vacib məsləhətiniz nə olardı?***

Ən vacib məsləhətim: "Hüquqi savadlılıq lüks deyil, ehtiyacdır". İxtisasınızdan asılı olmayaraq işə müraciət edərkən qol çəkdiyiniz sənədləri mütləq oxuyun. "Tələbəyəm, onsuz da mənə müqavilə verməzlər" deyib geri çəkilməyin. Haqqınızı tələb etməkdən qorxmayın. Əgər hüquqlarınızın pozulduğunu düşünürsünüzsə, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət etmək hüququnuz var. Unutmayın, tələbə olmaq ucuz işçi qüvvəsi olmaq demək deyil!

***– Maraqlı və faydalı müsahibə üçün çox təşəkkür edirik!***

Mən təşəkkür edirəm, bütün tələbələrə həm təhsildə, həm də karyerada uğurlar arzulayıram.

*"Yeni fikir"*

# Kamil şəxsiyyət, bacarıqlı alim, qayğıkeş müəllim

Səbuhini uzun illərdir tanıyıram. Naxçıvan Dövlət Universitetində magistr təhsili alıb. O zamandan tanış olmuş, sonradan dost olmuşuq. Dünyada müxtəlif sənət, peşə, vəzifə sahibləri var. Bu insanların hamısı üçün bir şey eynidir. Onların hamısı çalışmaq, işləmək, yaratmaq, qurmaq qabiliyyətinə malikdir. Elə insanları birləşdirən də məhz budur. Dünyada normal yaranmış elə bir insan yoxdur ki, işləməyə, əməyə meyilli olmasın. Səbuhi də bu baxımdan zəhmətkeş alimdir.

Doğulduğu Ərəzin kəndinin əsrarəngiz təbiəti hopub onun varlığına: bulaq suyu kimi dumduru, saf xarakteri, hər bir insanın müraciətinə həssaslıqla yanaşan, hər kəslə ünsiyyət qurmağı bacaran, təcrübəli pedaqoq, həlim bir insan kimi nəzəri cəlb edib.

Səbuhi İbrahimov respublikanın tanınmış mətnşünasları içərisində dəyərli mövqeyə malik bir tədqiqatçıdır. Səbuhi müəllim gənclik illərindən başlayaraq həyatının 25 ilini xalqımızın yazılı abidələri sayılan əlyazma mətnlərinin tədqiqinə həsr edib. Onda olan bu sevgi, həvəs onu respublikanın mətnşünas alimlərindən biri kimi tanıdıb.

Səbuhi Məmmədəli oğlu İbrahimov 1971-ci ildə Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Ərəzin kəndində anadan olub. Hər gün səhərlər eyvana çıxdıqda qarşısındakı İlanlı dağın əzəmətli görünüşü, yaşadığı kəndin sərin bulaqları, çiçəkli çəmənləri onda təbiətə qarşı məhəbbət, etibar, xoşrəftar və davranış gözəlliyi formalaşdırıb.

Bu kənd haqqında çox yazılmasa da Tarixçi Solmaz Qaşqaylının tədqiqatlarında e.ə. IX əsrdə Ərəzin əhalisinin buraya hücüm edən Urartu dövlətinə müqavimət göstərməsindən bəhs olunur. Kənd Azərbaycanın siyasi həyatında böyük rol oynamağı ilə fərqlənmiş, belə ki, sovet hakimiyyəti qurulan dövrdə sovetləşməyə ciddi müqavimət göstərmişdir. O dövr üçün belə bir cəhdin edilməsi mühüm əhəmiyyətə malik idi. Kəndin adının tarixi baxımdan izah edilməsində konkretləşmiş mövqe olmasa da, xalq etimologiyasına əsasən deyə bilərik ki, ad etimoloji təhlili ilə bağlı olan ilk versiya "ər" – igid, cəsur insan, "zin" – cəmlik bildirən ələmət kimi çıxış etməsi və ərlər diyarı, ərlər məskəni bildirməsi ilə bağlıdır. Bir başqa versiya isə adın "ərz" – dəyər, qiymət və "in" – cəmlik əlamətindən ibarət olmasıdır. Belə ki, dəyərlər diyarı mənasını ifadə etməsidir.

Ərəzin kəndi vətənə onlarla yüksək ixtisaslı, öz işini mükəmməl bilən alim, müəllim, həkim, mühəndis, müxtəlif peşə sahibi verib. Bu kəndin insanları zəhmətkeş və əməksevərdirlər. Səbuhi də bu kənddə böyüyüb, orta məktəbi bitirib. Sonra Bakı İslam Universitetində bakalavr, Naxçıvan Dövlət Universitetində isə magistratura pillələrini bitirib.

Yunan dramaturqu Sofokl yazır: "Dünyada heyrətedici güclü qüvvələr çoxdur, lakin insandan güclüsü yoxdur. Əsas məsələ bundan necə istifadə etməkdə, bu gücü nəyə sərf etməkdə, nəyə yönəltməkdədir. Öz gücünü düzgün qiymətləndirməyi bacaran və ondan düzgün istifadə edən insan həmişə uğur qazanır. Bunun üçün o gərək heç bir çətinlikdən qorxmasın, öz işini sevsin".

Alman filosofu Feyerbax yazırdı: "İnsanın əsl sifəti işdə özünü göstərir". Rus yazıçısı A.Çexovun fikrincə, bizim hər birimizdə həddsiz miqdarda vint, çarx və klapan var ki, ilk və bir neçə görüşdə birimizin digər birimiz haqqında düzgün mühakimə yürütməsinə imkan vermir. İnsanı tanımaq, onun haqqında səhih mühakiməyə malik olmaq üçün: 1) onu sevməyi, özünü onun yerinə qoymağı bacarmalısan; 2) onun nələr haqqında düşündüyünü, həyəcanlarını, xoşbəxtliyinin sirlərini özündə gizlədən daxili aləmini öyrənməlisən; 3) gündəlik qayğıları, fəaliyyəti ilə dərindən maraqlanmalı, onları bilməyə çalışmalısan; 4) onun bütün xarakterini, xasiyyətini, maraqlarını açmaq üçün onunla qarşılıqlı və səmimi ünsiyyət yaratmalısan; 5) insanı daha dərindən tanımaq üçün onda olan keyfiyyətlərin, xasiyyətlərin heç olmasa bir neçəsi səndə olmalıdır.

Bu baxımdan Səbuhi elmi, oxumaq həvəsi, çalışqanlığı, insanlarla mehriban rəftarı ilə həmişə diqqətimi cəlb edib. Sonralar gənc olmasına baxmayaraq onunla dost olmuşam. Yüksək insani keyfiyyətləri ilə yanaşı, gözəl alimdir. Tədqiqatları fəlsəfənin və mətnşünaslığın müxtəlif problemlərinə həsr edilib.

2005-ci ildə AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı olub. 2008-ci ildə Bakı Dövlət Universitetində "İslamda imamilik" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Yadımdadır, müdafiə zamanı Bakı Dövlət Universitetinin auditoriyasında özünəməxsus sərbəstlik və təmkinlə öz dissertasiyasının məzmunu, məqsəd və vəzifələri, aktuallığı, elmi və praktik əhəmiyyəti barədə məlumat verən Səbuhi müəllim uzun illər məşğul olduğu problemin əsas müddəalarını müdafiə şurasının üzvləri qarşısında şərh edir, özünün fikir və mülahizələrini konkret misallarla əsaslandırmağa çalışırdı. İddiaçıya şura üzvlərinin ünvanladıqları suallara onun dəqiq, düşünülmüş elmi və hərtərəfli cavabları adamın ürəyini qürur hissi ilə doldurur, müdafiədə iştirak edənlərdə belə bir qənaət hasil olurdu ki, Səbuhi müəllim bu sınaqdan böyük uğurla çıxacaqdır.

Dissertasiyanın müzakirəsində çıxış edən fəlsəfə elmləri doktorları – professor İzzət Rüstəmov, professor Zeynəddin Hacıyev, professor Marif Əkbərov, professor Niyazi Mehdi, bu sətirlərin müəllifi və başqa çıxış edənlər işi müsbət qiymətləndirdilər. Müdafiə Şurasının sədri, akademik Fuad Feyzullah oğlu Qasımzadənin çıxışında xüsusilə diqqətimi çəkən sözlər indi də xatirimdədir: "Həmişə dissertasiya müzakirə olunanda insanda bir gözləmə məqamı olur. Düşünürsən ki, görəsən mən bu dissertasiyadan nə götürəcəyəm. Müəllif bu ada layiqdirmi? Hansı yeniliklər var? Bu zaman nəticə müsbət olduqda insan sevinir və qürurlanır. Mən bu gün həqiqətən məmnunluq hissi keçirirəm. Bugünkü dissertasiya şurasının iclasında iddiaçının və müzakirə olunan dissertasiyanın üstün cəhətləri çoxdur. Əvvəla islam tarixi ilə bağlı belə bir mövzunu götürüb fəlsəfi tədqiq etmək böyük cəsarət tələb edir. İddiaçı özündə belə bir cəsarət tapa bilib. Mövzu problem səviyyəsində qoyulub və bu səviyyədə də araşdırılıb. Müəllif mövcud olan tədqiqatları sadəcə gözdən keçirməyib, həcm naminə cümlələr yığmaq fikri olmayıb, problemləri dövrə uyğun işləyib, əvvəldən axıra qədər öz təhlillərində çalışıb ki, elmi metodologiyaya riayət etsin. Əsər orijinal yazılıb. Səbuhi İbrahimov öz tədqiqatında həqiqətən çox mürəkkəb mövqe tutub, bu həm də imamiliklə bağlı mövzunun mötədilliyindən irəli gəlir".

S.İbrahimov çoxsahəli, gərgin elmi fəaliyyətlə məşğuldur. Belə ki, o, "Naxçıvana dair əlyazmaların filoloji-tekstoloji tədqiqi (XIX əsrin axırı - XX əsrin əvvəlləri)" mövzusunda uğurla doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi alıb. Səbuhi bu tədqiqat işində Naxçıvanla bağlı məsələlərə xüsusi diqqət yetirib, müxtəlif arxivlərdə, elmi-tədqiqat müəssisələrində yaradıcılıq axtarışları aparıb, yeni faktlar aşkar edərək öz dissertasiyasında onlardan bacarıqla istifadə edib. Bu elmi işi ilə bağlı əhəmiyyətli məqalələr ərsəyə gətirib. Mütəxəssislər onun bu tədqiqat işini yüksək qiymətləndirib. S.İbrahimovun bu dissertasiyası Naxçıvan əlyazma mətnlərinin tarixini, dəyərini özündə əks etdirən qiymətli elmi-tədqiqat işidir. Alim bu dissertasiyasında bir mətnşünas və tərcüməşünas kimi bacarıq və istedadını göstərməyə nail olub.

Bir haşiyə: S.İbrahimov 2006-cı ildən AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsində fəaliyyət göstərməyə başlayıb. Hazırda o, Naxçıvana məxsus qədim əlyazma mətnlərinin tədqiqi, tərcüməsi və onların elmi-fəlsəfi mahiyyətinin araşdırılmasında mühüm əhəmiyyətli işlər görməkdədir. Bunu alimin Naxçıvana dair əlyazma mətnləri ilə bağlı 150-ə yaxın çap olunan elmi məqaləsindən də görmək olar. Səbuhi müəllim Respublika mətnşünaslıq elminin inkişafında zəhmətlə ərsəyə gətirdiyi kitab, monoqrafiya, dərs və metodik vəsaitləri və ölkədə və xaricdə çap olunan bir sıra elmi məqalənin müəllifidir. "Şərq peripatetizmi və islamda imamilik" (1385-2006), "İsna əşəri (12 imamilik)" (2007), "Munisnamə" (2008), "Yusif və Züleyxa" (2008), "Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhab əd-Dümu" əsərində fəlsəfi düşüncələr I cild" (2009), "Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhab əd-Dümu" əsərində fəlsəfi düşüncələr I-II cild" (2011), "Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərinin araşdırılması" (2011), "Şərq peripatetizm fəlsəfəsində insan amili" (2011), "Heydər Əliyev və əxlaqi dəyərlər" (2013), "Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri" (2017), "Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" (2018), "Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti" (2019), "Naxçıvan əlyazmaları: tədqiqlər" (2021), "Hacı Molla Məhəmməd Naxçıvani "Səhabəd-Dümu" (2022), "Naxçıvan əlyazmalarının mənəvi əsaslarla araşdırılmasının səbəbkarı" (2023) və s. əsərləri bunlara nümunədir.

Mətnşünas alimin mütəmadi olaraq respublikada və xarici ölkələrdə – Türkiyə, İran, Rusiya, Almaniya, Hindistan, Rumıniya, İngiltərə, Qazaxıstan və Kubada keçirilən beynəlxalq konfranslarda mühüm əhəmiyyət kəsb edən mövzular üzrə fəal iştirakı da diqqəti cəlb edir. Onun məqalələrinin çoxu nüfuzlu elmi jurnallarda çap olunmuşdur.

Roma yazıçısı Apuley deyirdi ki, insana onun harada doğulması, hansı xasiyyətdə olması, hansı torpaqdan olmasına görə yox, həyatını hansı prinsiplər əsasında qurduğuna əsaslanıb qiymət vermək lazımdır. Bu mənada Səbuhi müəllim vətəninə sədaqətli, torpağını sevən, fəaliyyət göstərdiyi müəssisənin, eləcə də Naxçıvan Dövlət Universitetinin inkişafı yolunda əlindən gələni edən bir şəxsiyyətdir.

Səbuhi müəllim ata yurdunun gərəkli davamçısı olan ləyaqətli övlad, yaxşı valideyn, yüksək etiqadlı din adamı, Azərbaycan ziyalılığının mühüm keyfiyyətlərini özündə cəmləşdirən, millətini, xalqını dərin məhəbbətlə sevən əsl vətəndaşdır. Onun ən müsbət keyfiyyətlərini özündə cəmləşdirən və tələbələrini də nümunəvi şəxsiyyət kimi yetişdirməyə çalışan Səbuhi bir müəllim kimi uca şəxsiyyət, ləyaqətli pedaqoqdur.

Deyl Karnegi yazır ki, "Yer üzündə başqa bir insan yoxdur ki, sənin kimi olsun". Yəni dünyadakı insanların hər biri özünəməxsus xarakterə, dünyagörüşünə malikdir. Təsadüfi olaraq deyilmir ki, hərənin öz aləmi var. Səbuhi müəllimin də aləmində düzlük, dürüstlük, xeyirxahlıq, zəhmətə qatlaşmaq əsas fəaliyyət amilləridir.

Bir dəfə Bakı Dövlət Universitetində fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmovla rastlaşdım. Səbuhini soruşdu. Dedi ki, Səbuhi filosof kimi elmə gəlsə də artıq kamil mətnşünas kimi formalaşıb. Onun əsərlərində tarix və ədəbiyyatımızın müxtəlif problemlərinin qoyuluşu özünəməxsus təhlil xüsusiyyətlərinə malikdir. Səbuhinin Naxçıvanda apardığı tədqiqatlar bizi çox sevindirir. Hiss olunur ki, Naxçıvan Muxtar Respublikasında elmə və təhsilə



yüksək dövlət qayğısı var.

Söhbətə qoşulan fəlsəfə elmləri doktoru, professor Qoşqar Əliyev isə dedi ki, mən Səbuhini çoxdan tanıyıram. İşgüzarlığına və zəhmətkeşliyinə bələdəm. Onunla söhbətdə nitqi və söhbətləri hər şeyi deyir. O layiqli fəlsəfəçi və mətnşünasdır.

Hər bir insan həyatda özünə müəyyən mövqe tutana, həqiqəti dərk edənə, aydın bir fikrə, qənaətə gələnə qədər müxtəlif problemlərlə üzləşir. Körpəlik, uşaqlıq, gənclik, cavanlıq, yetkinlik, qocalıq dövrləri keçirir. Bunlar insanın həyat yolunun pillələridir. Bu pillələrlə insan qalxır, yüksəlir, kişiləşir. Bu pillələr insanın qabiliyyətini, daxili aləmini, əxlaq və mənəviyyatını nümayiş etdirir. Özünün kimliyini dərk edə bilən insan yaşa dolduqca qəlbi ilə, ürəyi ilə hərəkət edir, gerçəkliyə, faktlara, dəlillərə əsaslanaraq mühiti daha düzgün anlamağa, dərk etməyə çalışır.

İnsan üçün həyatdan, təcrübədən, sınaqdan böyük, təsirli, səmərəli, xeyirli məktəb ola bilməz. Məhz uzun illərin təcrübəsi onu həm də əsl müəllim kimi formalaşdırıb. Hamı onun auditoriyada necə həvəslə mühazirə oxuduğunun şahididir. Səbuhi gözəl müəllim, əsl pedaqoqdur. Onun müəllimliyində tələbkarlıqla qayğı üzvi bağlılıq təşkil edir. Dərsdə çox ciddi, tələbkar görünən Səbuhi müəllim tələbələri ilə dostluq etməyi bacarır. Onlara dəyərli məsləhətlər verir, elm və həyat yollarında onların əsl qayğıkeşi, yolgöstərəni olur.

Səbuhi İbrahimov Azərbaycan mətnşünaslığının öyrənilməsi və tədqiqində müəyyən xidmətləri olan alim kimi elmin çətin yollarında tədqiqat işlərini Əlyazmalar Fondunda yorulmadan davam etdirir. Bu günlərdə Səbuhi ilə görüşəndə çapdan çıxmış bir kitabını mənə bağışladı. Kitab "Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti" adlanırdı. Bu məni çox sevindirdi. Görkəmli yazıçı V.Hüqo yazır: "Gələcək iki tip insana məxsusdur: fikir adamına və əmək adamına". Mahiyyətcə bunlar eyni şeydir, düşünmək elə özü işləmək deməkdir. Əmək insanın həyatıdır, həyatın dönməz qanunudur, insanın özünün özünə verdiyi qiymətidir. İnsanın hər bir nailiyyəti, uğuru yalnız əməklə, zəhmətlə bağlıdır.

Səbuhi Məmmədəli oğlu İbrahimovun 55 yaşı tamam olub. O gözəl arzularla yaşayır. Onu yeni-yeni tədqiqatlar, həyatda daha böyük uğurlar gözləyir. Əminəm ki, biz həmişə onun yeni tədqiqat əsərləri ilə tanış olacaq, onun gur səsini auditoriyalardan eşidəcəyik. Mən öz alim dostuma möhkəm cansağlığı, gələcək işlərində böyük uğurlar arzulayır, onu elmin ən uca zirvələrində görmək istəyirəm!

**55 yaşın mübarək, əziz dost!**

***Məmməd Rzayev***
***Naxçıvan Dövlət Universitetinin "Sosial və ictimai münasibətlər" kafedrasının professoru, fəlsəfə elmləri doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

# NDU-da dövlət siyasətinin akademik təzahürü

Müasir dövrdə elm və təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri də dövlətin strateji inkişaf hədəflərinə uyğun elmi mühit formalaşdırmaq, aktual təşəbbüsləri dəstəkləməkdir. Naxçıvan Dövlət Universitetində keçirilən beynəlxalq və regional konfranslar da məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Universitetin ev sahibliyi etdiyi tədbirlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi, həmçinin rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin gücləndirilməsi ilə bağlı müəyyən etdiyi strateji istiqamətlərə, eləcə də 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunmasından irəli gələn vəzifələrə elmi müstəvidə dəstək verməsi ilə diqqət çəkir.

2026-cı ilin may ayında Naxçıvan Dövlət Universitetində "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda IV respublika elmi konfransı, "Süni intellekt: nəzəriyyədən praktikaya" III beynəlxalq elmi konfrans, memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr olunmuş "I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm" konfransı (ICCHST – Naxçıvan 2026) və "2025-2026-cı tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin Yekun Konfransı" və "Magistrantların XV Regional konfransı" keçirildi.

Hələ 100 il əvvəl Cavid əfəndi yazırdı:

Turana qılıncdan daha kəskin ulu qüvvət,
Mədəniyyət, mədəniyyət, yalnız mədəniyyət!

Bəli, mədəniyyəti, elmi ilə parlayan dövlətlər daha güclü olurlar. Biz II Qarabağ müharibəsində qılınc gücümüzü dünyaya tanıtmışıq, indi isə növbə elmdə, mədəniyyətdədir. Keçirilən bu konfransların hər biri adlarından da göründüyü kimi, dövlət-elm birliyinin sübutudur. Azərbaycan dili milli kimliyin və mənəvi yaddaşın daşıyıcısı kimi, süni intellekt rəqəmsal gələcəyin əsas aləti, mədəni irs və memarlıq keçmişlə gələcək arasında körpü, gənc tədqiqatçılar isə bütün bu proseslərin davamçıları kimi çıxış edirlər.

Naxçıvan Dövlət Universitetində keçirilən bu konfranslar dövlət siyasətinin prioritet istiqamətlərinin elmi müstəvidə təbliği, müzakirəsi və inkişafına xidmət edən mühüm platformalardır. Burada səsləndirilən ideyalar və aparılan tədqiqatlar Azərbaycanın milli-mənəvi dəyərlərə söykənən, yeniliklərə açıq və dayanıqlı inkişaf modelinin formalaşmasına öz töhfəsini verdi.

Bütün bu konfransların əsas iştirakçılarından biri kimi onların hər birini ayrı-ayrılıqda təhlil etməyə çalışacağam.

Əvvəlcə 1-2 may tarixlərində keçirilən "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda keçirilən IV Respublika elmi konfransına nəzər salaq. Konfransın açılış mərasimində bir-birindən maraqlı çıxışlar, məruzələr dinlədik. İxtisasından asılı olmayaraq bu konfransın hər bir iştirakçısı özü üçün faydalı nəticələr çıxara, yeni yanaşmalarla tanış olub müxtəlif qeydlər götürə bilərdi.

NDU-nun rektoru Elbrus İsayev çıxışında Ana dilimizlə bağlı görülən işlərdən danışdı, ən əsası, bir sıra təkliflər irəli sürdü. Bu təkliflər arasında Azərbaycan dilinin tədrisində innovativ yanaşmaların tətbiqi, rəqəmsal resurslarda və elektron platformalarda ana dilindən istifadənin genişləndirilməsi, gənclər üçün yeni imkanların yaradılması xüsusi aktuallığı ilə seçilirdi. Eyni zamanda dil normalarını qoruyan mətnlər üzərində işləmək, ali və ümumtəhsil məktəbləri üçün yeni proqramların yaradılması, eləcə də müasir qiymətləndirmə meyarlarının tətbiqi ilə bağlı fikirlər sadəcə nəzəri mülahizə deyil, həm də gələcək fəaliyyət üçün konkret yol xəritəsi təsiri bağışlayırdı. Xüsusilə süni intellektin və rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə Azərbaycan dilinin rəqəmsal məkanda mövqeyinin gücləndirilməsi ilə bağlı səsləndirilən təkliflər konfransın ən yaddaqalan məqamlarından biri oldu.

Konfrans bizi Ana dilimizə daha məsuliyyətli yanaşmağa, ağzımızdan, qələmimizdən çıxan hər bir sözü bir daha sorğulamağa təşviq edirdi. Dilçi-alimimiz Nadir Məmmədlinin sadəliklər içində gizlənən incə məqamlara diqqət çəkməsi xüsusilə maraq doğurdu. Məsələn, birinə "Sənə qarşı hörmətim var" deyilməz, qarşı hörmətmi olar? Bu və bu kimi bir çox maraqlı məqamlar…

Qeyd edim ki, konfransın bölmə iclaslarında 2 gün ərzində 6 istiqamət üzrə 12 bölmədə 20 elm və təhsil müəssisələrindən 110 əməkdaşın 97 məruzəsi təqdim olundu. İndi biz bu cümlədə ancaq rəqəmləri görürük, illər sonra nəticələrin də danışacağına əminik. Təkcə bir konfransda Ana dili ilə bağlı 97 məruzə heç də az deyil. Nəzərə alaq ki, bu 97 konfrasın hər biri ayrı-ayrılıqda neçə-neçə tədqiqat mövzusunun əsas qaynağı ola bilər.

Azərbaycan dilinə həsr olunan konfransdan sonra diqqət elmin və texnologiyanın ən sürətlə inkişaf edən istiqamətlərindən birinə – süni intellektə yönəldi. "Süni intellekt: nəzəriyyədən praktikaya" III Beynəlxalq Elmi Konfransı göstərdi ki, bu sahə artıq gələcəyin deyil, bu günün reallığıdır və ali təhsil müəssisələri bu prosesdə aparıcı rol oynamağa hazır olmalıdır.

Konfransın diqqətçəkən məqamlarından biri tələbələrin innovativ layihələrindən ibarət sərgi oldu. Ağıllı şəhər modelləri, ekoloji həllər, təhlükəsizlik sistemləri və digər texnoloji layihələr süni intellektin nəzəri müzakirələrdən kənara çıxaraq praktik tətbiqlərə çevrildiyini nümayiş etdirirdi. Bu, həm də universitetdə formalaşan innovasiya mühitinin real göstəricisi idi.

Naxçıvan Dövlət Universiteti, sözün əsl mənasında, zamanın nəbzini tutan ən qabaqcıl universitetlərdən biri kimi, bütün bu dəyişikliklərlə ayaqlaşır. Konfrans zamanı bu ali təhsil ocağında gələcəkdə süni intellektlə bağlı yeni ixtisasların açılmasının nəzərdə tutulduğu, bu sahədə fəaliyyət göstərəcək ofis və innovasiya məkanlarının yaradılması istiqamətində işlər aparıldığı diqqətə çatdırıldı. Həmçinin bildirildi ki, ilin sonunadək IBM Mərkəzinin yeni ofisinin istifadəyə verilməsi planlaşdırılır. NDU-da hazırda əksər ixtisaslarda süni intellekt ayrıca fənn kimi tədris olunur, bu tələbələrin gələcəyə daha təkmil hazırlanmalarında mühüm rol oynayır.

Konfrasda vurğulandı ki, ilkin alqoritmlər, proqramlaşdırma modelləri və süni intellekt anlayışları ilə müxtəlif yaş qrupları mərhələli şəkildə tanış olmalıdır. Məsələn, 6-10 yaş, 11-17 yaş və 17 yaşdan sonrakı universitet dövrü üzrə fərqli yanaşmalar müəyyənləşdirilməli, hər yaş dövründə gənclərin hansı süni intellekt bilik və bacarıqlarına yiyələnməli olduqları aydın şəkildə izah olunmalıdır.

Konfransın bölmə iclasların Azərbaycanın və dünyanın müxtəlif ölkələrindən elm və təhsil müəssisələrinin tədqiqatçılarının üz-üzə və onlayn iştirakı ilə ümumilikdə 4 salonda, 12 istiqamət üzrə baş tutub. 21 bölmə üzrə keçirilən panellərdə respublikamızdan və xaricdən qatılan 34 elm-təhsil müəssisəsindən 264 əməkdaşın 148 məruzəsi təqdim olunub. Eyni zamanda tələbə bölməsində 82 tələbənin 38 məruzəsi dinlənilib.

Konfrans bir daha göstərdi ki, süni intellekt dövrünün əsas çağırışı texnologiyanı izləməklə yanaşı, onu yaradan və idarə edən insan resursunu formalaşdırmaqdır. Naxçıvan Dövlət Universitetində keçirilən bu beynəlxalq elmi tədbir də məhz bu məqsədə xidmət edərək elm adamlarını, mütəxəssisləri və gənc tədqiqatçıları ortaq müzakirə platformasında bir araya gətirdi. Səsləndirilən ideyalar və irəli sürülən təşəbbüslər süni intellekt sahəsində elmi potensialın gücləndirilməsinə, innovativ düşüncənin təşviqinə və ölkəmizin rəqəmsal gələcəyinə töhfə verəcək mühüm addımlar kimi dəyərləndirilə bilər.

Magistrantların XV Regional Konfransı isə gənc alimlərin elmi potensialının üzə çıxarılması, yeni tədqiqat əlaqələrinin qurulması və gələcəyin elmi kadrlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyan tədbir kimi yadda qaldı. Konfrans bir daha təsdiqlədi ki, ölkənin elmi inkişafının əsas təminatlarından biri bilikli, təşəbbüskar və araşdırma ruhuna malik gənc nəslin yetişdirilməsidir.

"2025-2026-cı tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin Yekun Konfransı"nda cari tədris ilində 1775 tələbə tərəfindən 1771 elmi-tədqiqat işi yerinə yetirilib. Son 9 ildə NDU-da elmi fəaliyyətlə məşğul olan tələbələrin sayı təxminən 5 dəfə artıb. Elmi-tədqiqatla məşğul olan tələbələrin təxminən 5 faizini isə əcnəbi tələbələr təşkil edir. Tələbələrin elmi-tədqiqata cəlb olunması universitetimizin əsas uğurlarından biridir.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Memar Əcəmi Naxçıvaninin 900 illiyinə həsr olunmuş I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı (ICCHST – NAXÇIVAN 2026) Naxçıvanın tarixi-mədəni irsi ilə tanışlığla başladı.

Naxçıvanın möcüzəvi şəfa ocağı olan Duzdağ Müalicə Mərkəzinə, dünyaca məşhur, möcüzəvi və sirli məkanlarından olan Əshabi-Kəhf ziyarətgahına, Ordubad rayonunda – Zəngəzur dəhlizinə yaxın ərazidə yerləşən Kotam kəndinə səfər təşkil edildi.

Ordubadın Sərşəhər və digər qədim məhəllələrinə səfər edən qonaqlar şəhərin tarixi memarlıq mühiti, qədim yaşayış ənənələri və özünəməxsus şəhərsalma xüsusiyyətləri ilə yaxından tanış olub, Qeysəriyyə muzeyini, tarixi məhəllə meydanlarını və qədim küçələri ziyarət etdilər.

I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı (ICCHST – NAXÇIVAN 2026) çərçivəsində təşkil olunan bu səfər konfransın əsas məqsədlərinə uyğun olaraq, mədəni irsin yalnız elmi müstəvidə müzakirəsini deyil, həm də onun real məkanlarda nümayişini təmin etdi.

Konfransda diqqət çəkən məqamlardan biri mədəni irs, şəhərsalma və turizmin bir-biri ilə qarşılıqlı əlaqədə təqdim olunması idi. Çıxışlarda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma layihələri, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqi, tarixi-mədəni irsin müasir yanaşmalar əsasında qorunması məsələləri geniş müzakirə olundu. Bu baxımdan tədbir yalnız elmi fikir mübadiləsi deyil, həm də ölkədə həyata keçirilən şəhərsalma siyasətinin akademik müstəvidə qiymətləndirilməsi üçün mühüm platformaya çevrildi.

Eyni zamanda konfrans mədəni irsin qorunmasının turizmin inkişafı ilə vəhdətdə nəzərdən keçirilməsinin vacibliyini ortaya qoydu. Universitetlər, tədqiqatçılar və sahə mütəxəssisləri tərəfindən irəli sürülən fikirlər göstərdi ki, tarixi-mədəni irsin rəqəmsallaşdırılması, elmi tədqiqi və beynəlxalq səviyyədə tanıdılması dayanıqlı turizmin inkişafına mühüm töhfə verə bilər.

Beləliklə, I Beynəlxalq Mədəni İrs və Dayanıqlı Turizm Konfransı Memar Əcəminin zəngin irsinin təbliği ilə yanaşı, mədəni irsin qorunması, müasir şəhərsalma yanaşmaları və dayanıqlı turizmin inkişafı istiqamətində yeni elmi baxışların formalaşdırılmasına xidmət edən əhəmiyyətli beynəlxalq platforma kimi yadda qaldı.

Naxçıvan Dövlət Universiteti həm də elmlə sənəti birləşdirən ali təhsil və mədəniyyət ocağıdır. Elə buna görə də may ayında keçirilən konfranslar yalnız elmi müzakirələrlə yadda qalmadı. Hər bir tədbirin bədii hissəsi iştirakçılara göstərdi ki, elm və sənət əslində bir-birini tamamlayan iki böyük dəyərdir.

Konfrans salonlarında süni intellektin gələcəyi, Azərbaycan dilinin inkişaf perspektivləri, şəhərsalma, memarlıq və turizmin aktual problemləri müzakirə olunarkən səhnədən yüksələn musiqi sədaları bu mühitə xüsusi rəng qatırdı. Bir tərəfdən texnologiyanın və innovasiyanın yaratdığı yeni imkanlar haqqında düşünür, digər tərəfdən cazın ritmləri və musiqinin ahəngi ilə mənəvi rahatlıq tapırdıq. Bir tərəfdən Memar Əcəminin yaratdığı möhtəşəm irsin böyüklüyünü yenidən dərk edir, digər tərəfdən "Sazın sədası" proqramında xalqımızın əsrlərdən süzülüb gələn ruhunu hiss edirdik.

Bəlkə də universitet mühitinin gözəlliyi elə bundadır: burada elm insanı düşündürür, sənət isə düşündüklərinə məna və duyğu qatır. May ayında Naxçıvan Dövlət Universitetində keçirilən konfranslar məhz bu harmoniyanın parlaq nümunəsinə çevrildi.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvanın tarixi yaddaşında Kəngərli izi

Azərbaycanın qədim tarixə malik bölgələrindən biri olan Naxçıvan əsrlər boyu müxtəlif tayfaların, dövlətlərin və mədəniyyətlərin qovuşduğu mühüm məkan olmuşdur. Bu tarixi proseslər içərisində Kəngərli tayfası xüsusi yer tutur. Naxçıvan xanlığının yaranması və inkişafında mühüm rol oynayan Kəngərlilər təkcə bölgənin siyasi həyatında deyil, həm də onun etnik tərkibinin, sosial münasibətlərinin və tarixi yaddaşının formalaşmasında əhəmiyyətli iz buraxmışlar.

Bu gün Kəngərlilərin adı yalnız tarixi mənbələrdə deyil, həm də Naxçıvanın coğrafi məkanında, yer adlarında, yaşayış məntəqələrində və xalq yaddaşında yaşamaqdadır. Tarixi yaddaşın daşıyıcısı olan bu izlər Kəngərli tayfasının bölgənin inkişafında oynadığı rolu daha aydın şəkildə anlamağa imkan verir. Məhz buna görə də Kəngərli tayfasının məskunlaşma areallarının və müasir coğrafi izlərinin araşdırılması Naxçıvanın tarixi keçmişinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Kəngər tayfasının Naxçıvan ərazisində məskunlaşmağa başlaması eramızın IV-V əsrlərinə təsadüf edir. Belə ki, həmin yüzilliklərdə Kəngərlər Şimali Qafqazdan Azərbaycan ərazisinə daxil olan hunlarla birlikdə bu torpaqlara ayaq basmış, həmin dövrdən etibarən onlar Azərbaycanın bir çox bölgəsinə, o cümlədən Naxçıvan torpağına səpələnərək burada bina qoymuşlar. Amma tarixi mənbələrdə bu haqda fikirlər birmənalı deyil. Məsələn, məşhur yunan tarixçisi Ptolomey öz əsərində qeyd edir ki, miladdan öncə II əsrdə Şamaxı ilə Bakı arasında Kenqer, Kanqar şəhəri mövcud olubdur. Pəhləvi və gürcü qaynaqlarında da, həmçinin burada Kanqarq vilayətinin olması haqqında məlumatlar mövcuddur. Kəngər tayfası IX-X əsrlərdən etibarən (Xarəzmşahların zamanında) İslamı qəbul edib və bu dövr qaynaqlarında "Kəngli" adı ilə də tanınıbdır.

*Ardı 9-cu səhifədə*

IX əsrdə Səlcuq türkləri Qərbi İranı və Cənubi Qafqazı tutduqdan sonra "Kəngli" tayfaları da bu yürüşlərdə iştirak etmiş və oğuz - səlcuqların tərkibində Azərbaycanda öz mövcudluqlarını daha da möhkəmləndiriblər. Səfəvilər dövlətinin yaradıcısı və banisi Şah İsmayıl Xətainin 1501-ci ildə hakimiyyətə gəlməsi ilə Kəngər tayfası ölkənin siyasi həyatında artıq mühüm rol oynayan tayfa ittifaqına çevrilibdir. XVII əsrə gəldikdə isə, xüsusilə Naxçıvan torpağı kəngərlilərin nüfuz dairəsində idi. XVIII əsrdə əsası qoyulmuş Naxçıvan xanlığının yaradıcıları içərisində Hacı xan, Rəhim xan, Kəlbalı xan Kəngərlilər mühüm rol oynayıblar.

Azərbaycan ərazisində ilk müstəqil xanlıqlar XVIII əsrin 40-cı illərində yarandı. Onların bəzisi Nadir şah dövlətinin süqutundan sonra meydana gəlmişdisə, digərləri hələ Nadir şahın hökmranlığı dövründə hökumət əleyhinə mübarizə nəticəsində formalaşmağa başlamışdır. Keçmiş Səfəvi imperiyasının inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyinin ərazisinin müəyyən hissəsində yaranan Naxçıvan xanlığı XVIII əsrin ortalarında Nadir şah imperiyasının süqutundan sonra meydana gəlmiş Azərbaycan dövlətlərindən, xanlıqlarından idi. 1747-ci ildə Kəngərli tayfa başçısı Heydərqulu xan Nadir şah tərəfindən Naxçıvan ölkəsinə müvəqqəti hakim təyin edilən Ağa Həsəni hakimiyyətdən salıb, özünü Naxçıvanın müstəqil xanı elan etdi.

Azərbaycan 1762-ci ilədək digər şah sərkərdəsinin – İran hakimi Kərim xan Zəndin (1763-1779) təsir dairəsinə düşsə də, Naxçıvan xanlığı müstəqil olaraq qaldı.

Zəngəzur dağlarından xeyli şimalda olan Kəngərli çayından başlamış Araz çayı vadisinə qədər ərazidə yerləşən Naxçıvan xanlığı iqtisadi və hərbi imkanlarına görə digər xanlıqlardan o qədər də fərqlənmirdi. 1747-1797-ci illərdə Naxçıvan xanlığı müstəqil olduğundan daxili və xarici siyasətini özü müəyyənləşdirirdi. Naxçıvan xanlığı Heydərqulu xan Kəngərlinin hakimiyyəti dövründə sürətli inkişaf yolu keçmiş, ancaq onun vəfatından sonra yağıların tapdağına çevrilmişdir.

Tarixi mənbələrdə Kəngərlilərin 18 və 31 nəsil bölgüsü olduğu haqda məlumat vardır. Naxçıvan xanlığında Kəngərli tayfasının məşhur qolları yaşayırdı: Yurdçu, Cəmşidli, Xalxallı, Qaraxanbəyli, Ağabəyli, Cığataylı, Qaraçalı, Bilici, Qaradolaqlı, Kəclər, Sarvanlar, Şahbanlılar, Əlixanlı, Ərəfsəlilər, Salahılar, Qızıllı, Pirhəsənli, Qızılqışlaq, Kəlfir və Qarabağlar.

Naxçıvan xanlığında əhalinin nisbətən sıxlıq təşkil etdiyi yerləri üç qrupa bölmək olar. Birinci qrupa Naxçıvan şəhəri daxil olmaqla Naxçıvan çayının mənsəbinə doğru uzanan ərazi; ikinci qrupa daxil olan ərazi Culfadan başlayaraq Ordubaddan keçməklə Gilançay boyunca davam edərək Mehri istiqamətinə qədər gəlib çatırdı; üçüncü qrupa isə əhalisi nisbətən az olan ərazi – Əlincə çayı boyunca uzanan sahə daxil idi. Naxçıvan xanlığının qalan ərazisi meşəsiz, hər cür bitkidən məhrum və susuz yerlər idi.

Rus tarixçisi S.P.Zelinski Naxçıvan xanlığının xarici görünüşünü təsvir edərək yazırdı: "Susuz şoran çöllər, müxtəlif formada olan dağ qayalıqları, dərə-təpəli sahələr, gözəl otlaq yerləri, təsəvvüredilməz düzənliklər, səs-küylü saysız-hesabsız vadilər və dərələrdən axan və yayda tamamilə quruyan dağ selləri bu uzaq guşənin xarici aləmini özündə əks etdirir".

1752-ci ildən sonra Naxçıvan xanlığında əsasən iki şəhər – Naxçıvan və Ordubad şəhərləri siyasi və iqtisadi baxımdan əhəmiyyət kəsb edirdi. Naxçıvan şəhəri xanlığın mərkəzi idi. Naxçıvan qədimdə çox böyük şöhrətə malik idi. Onun qala divarları arasında 30 minə qədər ev var idi. Naxçıvan şəhəri xanlıqlar dövründə feodal-ara müharibələri və xarici hücumlar nəticəsində ciddi dağıntılara məruz qalmışdı. Bunu təsdiqləyən mənbələr çoxdur. Onlardan birində deyilir: "Təbii ki, Naxçıvan çox qədim şəhərdir. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi".

İlkin şəhər mədəniyyətinin yarandığı və təxminən 5000 il bundan əvvəl şəhər tipli yaşayış məskəninə çevrilən Naxçıvan şəhəri xanlıq dövründə inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdü: 1. Əlixan; 2. Şahab; 3. Qurdlar; 4. Sarvanlar.

Sonralar şəhərdə məhəllələrin sayı artaraq 13-ə çatmışdır. Şəhər əhalisinin sayının mütəmadi olaraq azalması fonunda məhəllələrin sayının artması məhəllələrin daha kiçik hissələrə parçalanması və başqa yerlərdən köçüb gələnlərin hesabına baş vermişdir. Xanlıqlar dövründə Naxçıvan şəhərində 751 evdə cəmi 4360 nəfər əhali yaşayırdı.

Xanlığın ikinci şəhəri Ordubad idi. Bu şəhər iki dağ arasında yerləşirdi. Həmin dağların arasından Ordubad çayı axırdı. Ordubad şəhəri inzibati cəhətdən beş məhəlləyə bölünmüşdü: 1. Anbaras; 2. Kürdatal; 3. Mingəs; 4. Sərşəhər; 5. Üç tərəngi. Tarixi mənbələrdə Ordubadın abad bir şəhər olduğu qeyd edilir. Xanlıqlar dövründə Ordubadda 615-635 ev var idi. Həmin dövrdə tərtib edilmiş mənbələrdən birinin məlumatına görə bu dövrdə Ordubadda 3444 nəfər əhali yaşayırdı.

Kəngərlilərin müasir coğrafi izləri bu gündə qalmaqdadır. Naxçıvan şəhərində mülki memarlıq nümunələrindən ən orijinalı Xan Sarayıdır. Naxçıvanın XVIII əsrə aid şərq memarlığı üslubunda olan bu sarayı həmin yüzilliyin sonlarında I Kalbalı xan Ehsan xan oğlu Kəngəli tikdirmişdir. Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu Saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi qaydada inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan Sarayı orijinal memarlıq üslubu ilə seçilir. Saray təxminən 1780-ci ildə inşa edilmişdir.

Naxçıvan və Ordubad şəhərlərində şəxsi yaşayış evlərinin xüsusi memarlıq üsulu ilə tikilməsinə xüsusi diqqət verilirdi. Ordubadın yaşayış evləri Naxçıvanın digər rayonlarının yaşayış evlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Ordubadda 3 bölüşdürücü dəhlizlərə malik olan evlərə də rast gəlmək mümkündür. Həmin evlərdən bir neçəsi Sərşəhər məhəlləsində qalmaqdadır.

Naxçıvan ərazisində bu günə qədər qorunub saxlanılan tarixi-memarlıq abidələri bölgənin keçmişinə işıq tutmaqla yanaşı, burada yaşamış tayfaların və nəsillərin fəaliyyətini də əks etdirir. Kəngərlilərin hakimiyyəti dövründə inşa edilmiş tikililər və formalaşmış yaşayış məskənləri həmin dövrün sosial-iqtisadi inkişaf səviyyəsini, şəhərsalma mədəniyyətini və yerli memarlıq ənənələrini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır.

Beləliklə, Kəngərli tayfası Naxçıvanın tarixində və dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Əsrlər boyu bölgənin siyasi həyatında fəal iştirak edən Kəngərlilər Naxçıvan xanlığının yaranması, inkişafı və idarə olunmasında xüsusi xidmətlər göstərmişlər. Onların fəaliyyəti nəticəsində Naxçıvan təkcə mühüm siyasi mərkəz kimi deyil, həm də zəngin mədəni və tarixi irsə malik bir bölgə kimi formalaşmışdır.

Bu gün Kəngərlilərin izi yalnız tarixi mənbələrdə deyil, həm də Naxçıvanın coğrafi məkanında, yaşayış məntəqələrində, memarlıq abidələrində və xalq yaddaşında yaşamaqdadır. Kəngərli tayfasının müxtəlif qollarının adlarını əks etdirən toponimlər, Naxçıvan xanlarının irsi ilə bağlı memarlıq nümunələri və bölgənin sosial-mədəni həyatında qorunub saxlanılan ənənələr bu tayfanın tariximizdə tutduğu mühüm mövqenin göstəricisidir.

Naxçıvanın tarixi yaddaşında yaşayan Kəngərli izi Azərbaycan xalqının zəngin keçmişinin ayrılmaz tərkib hissəsidir. Bu irsin öyrənilməsi və gələcək nəsillərə çatdırılması təkcə regional tarixin deyil, bütövlükdə Azərbaycan tarixinin daha dərindən araşdırılması və təbliği baxımından böyük əhəmiyyət daşıyır.

*Rəfael Sadiqov*
*Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin aparıcı arxeoqrafı*

# Sətirlərin arxasındakı əmək: Bir kitab necə ərsəyə gəlir?

Hər birimiz kitab mağazalarının rəflərində düzülmüş, rəngbərəng cildləri və bənzərsiz dizaynları ilə diqqət çəkən kitabları görürük. Oxucu üçün kitab sadəcə müəllifin fikirlərindən ibarət olan, vərəqlənən bir obyektdir. Lakin çox az insan fərqinə varır ki, o vərəqlərin arxasında böyük bir komandanın günlərlə, bəzən isə aylarla çəkən gərgin əməyi dayanır. Bir mətnin nəşriyyat qapısından içəri addım atması ilə oxucunun masasına çatması arasındakı yol, əslində, bir sənət və texnologiya xəritəsidir.

Hər şey bir ideya və ya əlyazma ilə başlayır. İstər bədii əsər olsun, istərsə də gənc tədqiqatçıların elmi-tədqiqat işləri – nəşriyyata daxil olan hər bir mətn ilkin oxu mərhələsindən keçir. Lakin müəllifin nöqtə qoyduğu yer nəşriyyat əməkdaşları üçün işin yenicə başladığı nöqtədir.

Mətn nəşriyyata qəbul edildikdən sonra onun üzərində ilk və ən məsuliyyətli iş başlayır: ***Dilin saflığının qorunması.*** Müasir dövrdə dil normalarına riayət etmək, durğu işarələrinin, defislərin düzgün tətbiqi mətnin oxunaqlığını təmin edən əsas şərtdir.



Redaktor və korrektorlar mətni cümlə-cümlə, söz-söz süzgəcdən keçirirlər. Məqsəd müəllifin üslubuna zərər vermədən Azərbaycan dilinin qrammatik və leksik qaydalarını qorumaqdır. Tərcümə ədəbiyyatlarında isə bu məsuliyyət ikiqat artır, xarici dildən gələn cümlə strukturunun dilimizə doğma və rəvan şəkildə adaptasiya edilməsi redaktorun peşəkarlığından asılıdır.

Mətn dil baxımından qüsursuz və tam hazır hala gətirildikdən sonra onun vizual taleyi və estetik görünüşü həll olunur. Müasir nəşriyyatda kitab tərtibatı sadəcə şrift yığmaqdan və ya təsadüfi bir üz qabığı hazırlamaqdan ibarət deyil. Bu mərhələ rəqəmsal dizayn alətləri ilə poliqrafiya elminin birləşdiyi nöqtədir. Bu mürəkkəb prosesdə professional nəşriyyat proqramlarının və qrafik planşetlərin rolu əvəzsizdir.

Oxucunun gözünü yormayacaq, mütaliə psixologiyasına uyğun şrift növləri, ölçüləri təyin edilir, hər səhifədəki sətirlərin düzülüşü riyazi dəqiqliklə hesablanır.

Üz qabığı oxucu ilə qurulan ilk səssiz dialoqdur. O, kitabın ruhunu, içindəki hekayəni, yaxud elmi-tarixi mahiyyəti tək bir baxışda oxucuya ötürə biləcək rəng, simvolizm və kompozisiya harmoniyasına malik olmalıdır.

Kitabın formatı, daxili vərəqlərin kağız növü cildləmə növü çap standartlarına tam uyğunlaşdırılır.

Bütün bu mürəkkəb elmi-yaradıcı mərhələlərdən keçən, monitorlarda son şəklini alan rəqəmsal fayllar artıq real, toxunula bilən bir sənət nümunəsinə çevrilmək üçün mətbəə sexinə ötürülür. Burada nəhəng çap maşınlarının ritmik səsi altında vərəqlər böyük sürətlə basılır, qatlanır, tikilir, cildlənir və nəhayət, o məşhur, insanı valeh edən "yeni kitab qoxusu" ilə nəşriyyatın anbarlarına, oradan isə kitab evlərinə və kitabxanalara yollanır.

Bir kitabın doğuluşu sadəcə fərdi bir fəaliyyət deyil, müəllifin intellektual yaradıcılığı ilə nəşriyyat işçilərinin texniki, bədii və linqvistik peşəkarlığının ortaq, sinerji yaradan məhsuludur. Sətirlərin arxasındakı bu gizli, fədakar əməyi dərk etmək əlimizə aldığımız hər bir kitaba və ümumilikdə mədəni irsimizə olan hörmətimizi bir daha artırır. Oxuduğumuz hər uğurlu, rəvan sətir və zövqümüzü oxşayan hər bir səhifə tərtibatı, əslində, pərdə arxasında qalan böyük bir komandanın oxucuya və gələcəyə ötürdüyü ən dəyərli mənəvi töhfədir.



*Meyxanım Məmmədova*
*NDU Nəşriyyatının əməkdaşı*

# Su içməyi unuduram demə!

Su insanın ən əsas ehtiyacıdır. Suyun çatışmazlığı insan sağlamlığında böyük problemlərə səbəb olur.

İnsanın həyat fəaliyyəti üçün suyun niyə bu qədər vacib olduğu sualına aydınlıq gətirsək, qeyd etməliyik ki, su orqanizmin pH (turşu-qələvi) balansını qoruyur, qida maddələrini orqan və toxumalara daşıyır, eyni zamanda orqan və toxumaların həyat fəaliyyəti nəticəsində yaranan zərərli maddələri (toksinləri) özündə həll edərək tər, nəfəs və digər ifrazatlar vasitəsilə orqanizmdən xaric edir.

Su – dadsız, iysiz, rəngsiz, sıxlığı 1000 q/sm$^3$ olan, donma temperaturu 0ºC, qaynama temperaturu 100ºC olan mayedir. Təbiətdə ən çox yayılan maddədir. Hid-




rosferdə 71% su vardır. Mübadiləsində enerji ayrılmamasına baxmayaraq insanların həyat fəaliyyətində suyun rolu əvəzolunmaz və çox vacibdir. Bütün biokimyəvi proseslər orqanizmin maye mühitində gedir. Qida maddələri suyun yardımı ilə mədə-bağırsaq sistemindən sorularaq qana keçir və toxumalara çatdırılır. Su hidroliz və oksidləşmə bərpa reaksiyalarında iştirak edir. Su içmək hər bir insan üçün bir vərdiş halına gəlməlidir. Su içməyi unudursunuzsa, hər zaman bir şüşə suyu masanızın üstündə saxlayın və gün ərzində için. Su içdikcə ağzınızın quruluğunun azaldığını hiss edəcək, eyni zamanda daha tez-tez su içmək ehtiyacı duyacaqsınız. Beləliklə, gün ərzində fərqinə varmadan 1,5-2 litr su qəbul etmiş olacaqsınız. Su "0" kaloridir və mədəyə toxluq hissi verdiyindən arıqlamağa kömək edir. Eyni zamanda maddələr mübadiləsini sürətləndirir. Bu da orqanizmin bütün hüceyrələrinin həyat fəaliyyətinin əsasını təşkil edir. Su mübadiləsi elektrolit mübadiləsi ilə sıx əlaqədardır. Ona görə çox vaxt su duz mübadiləsi adlanır. Su mübadiləsinin pozulması nəticəsində müsbət su balansı (+) yarana bilər. Bu zaman orqanizmə daxil olan suyun miqdarı xaric edilən suyun miqdarından çox olur və bu hal hiperhidratasiya adlanır. Mənfi su balansı (-) zamanı isə xaric olunan mayenin miqdarı qəbul edilən mayenin miqdarından çox olur ki, bu da orqanizmin susuzlaşmasına (dehidratasiyaya) və ciddi funksional pozuntulara səbəb olur. Lakin su mübadiləsinin pozulması yalnız ümumi su balansının dəyişməsi kimi qiymətləndirilməməlidir. Bu pozğunluq həm də orqanizmdəki iki əsas maye mühitinin – hüceyrədaxili və hüceyrəxarici mayenin mübadiləsinin pozulması şəklində özünü göstərə bilər. Hüceyrədaxili maye bədən çəkisinin 50%-ni, hüceyrəxarici maye isə 10-20%-ni təşkil edir. Hüceyrəxarici suyu həm də 5% damar daxili, 15% plazma və interstisial hüceyrədən xaric və damardan xaric maye təşkil edir. Orqanizmin fiziki-kimyəvi göstəricilərini osmotik tarazlığını interstisial maye və plazma arasındakı fasiləsiz mübadilə təşkil edir. Orqanizmin normal fəaliyyəti üçün su-elektrolit tarazlığı saxlanılmalıdır. Bunun üçün:

1. Ümumi maye yetərincə – nə az, nə də çox olmalıdır. Yəni nə hiperhidratasiya, nə də hipohidratasiya olmalıdır;
2. Hüceyrəxarici maye və onun tərkibindəki maddələrin nisbəti pozulmamalıdır;
3. Toxuma mayesinin osmatik təzyiqi normadan kənara çıxmamalıdır ki, hüceyrədaxili mayenin miqdarı optimal miqdarda saxlanılsın.

Ona görə də su həyat mənbəyi adlanır və insanın sutkada 1,5-2,5 litr maye qəbuluna ehtiyacı vardır. Xaricdən içki şəklində qəbul edilən mayedən başqa orqanizmdə endogen su da sintez olunur. Bu yağ, zülal, karbohidratların oksidləşməsi nəticəsində baş verir. 100 qram yağ oksidləşəndə 107 qram endogen su əmələ gəlir. O orqanizmin hüceyrələrini vitaminlər və mineral duzlarla təmin edir. Hüceyrənin həyat məhsullarını isə orqanizmdən xaric edir.

Yer üzündəki insanların yarıdan çoxunda orqanizmdə su yetərsizliyi qeyd olunur. Orqanizmdə kəskin susuzluq zamanı nəbz vurğularının sayı artır (taxikardiya), arterial təzyiq (AT) enir və nəfəs almaq çətinləşir. Gözlər çuxura düşmüş kimi görünür, dəri quruyur və elastikliyini itirir. Sidik ifrazının azalması oliquriya,



tünd rəngdə olması, yaxud sidik ifrazının tamamilə kəsilməsi isə anuriya adlanır. Baş gicəllənməsi və baş ağrıları yaranır, çox isti havalarda və ya intensiv hərəkətlərlə müşayiət olunan ağır fiziki iş zamanı belə tərləmə baş vermir. Çox sadə üsulla orqanizmdə maye yetərsizliyini öyrənmək üçün "çimdik simptomu" sınağından istifadə olunur. Əlin üstünün dərisini iki barmaq arasında sıxıb buraxdıqda dəri dərhal düzəlirsə bədən yetərincə su ilə təmin olunub deməkdir. Əgər bir neçə saniyədən sonra düzəlirsə susuzluq var deməkdir.

| Nəticə | Mənası |
|---|---|
| Dəri dərhal əvvəlki vəziyyətinə qayıdır | Normal hidratasiya |
| Dəri yavaş qayıdır (2–3 saniyə) | Yüngül və ya orta dehidratasiya |
| Dəri uzun müddət qatlanmış qalır (>3 saniyə) | Ağır dehidratasiya |

Dehidratasiya – susuzluq orqanların həyat fəaliyyətini pozan, patoloji simptomlara, bəzən geridönməz proseslərə səbəb olan bədəndə su miqdarının yetərsiz olmasıdır. Dehidratasiya susuzluğun ağır formasıdır, təhlükəlidir, əsasən yaz aylarında görülür. Yəni susuzluq bədəndə mayenin yetərsiz miqdarda olmasıdır, ən təhlükəlisi bəzi xəstəliklər zamanı rast gəlinir. İsti iqlimli ölkələrə səyahət zamanı da rast gəlinir. İnsan yaşlanan zaman susuzluq hissi kütləşir. Orqanizmin azca susuzlaşması maddələr mübadiləsini 30% endirir. Bu susuzluqdan ən çox əziyyət çəkən isə beyin toxuması, gözlər, dəri olur. İnsanın doğru düşünmə qabiliyyəti enir, yaddaşı itir. Dərisi qocalır, qırışır, görməsi zəifləyir.

Qazlı, spirtli içki içildikdə insanda susuzluq hissi artır. Əgər su itkisi 20%-dən çox olarsa orqanların işi pozulur. Ağır hallarda hətta ölüm də baş verir. Elə bu səbəbdəndir ki, su qəbuluna diqqət etməliyik ki, susuzluqdan həyati orqanlar zərər görməsin. Bir insan yeməksiz 30 gün və daha çox yaşaya bilər. Susuz isə 3-5 və ya 7 gün yaşaya bilər. İnsanlar yaşlandıqca beyin susuzluq hissini itirir. Bəzən yaşlı insanlarımız gün ərzində 1-2 stəkan su içirlər. Su için təklifinə isə axı susamıram niyə içim cavabı verirlər. Ona görə bəzi asan sınaqlarla ona əslində susuz olduğunu, ancaq hiss etmədiyini izah edirik. Bəs insan içməli olduğu suyun miqdarını necə hesablamalıdır? Bunu bir neçə üsulla təyin etmək olur: 1 kq çəkiyə 30-50 ml və ya orta hesabla 40 ml götürsək, 50 kq-lıq adam 2 litr, 60 kq-lıq adam isə 2 litr 400 ml su içməlidir. Ona görə də susuzluq hiss edəcəyinizi gözləmədən, əks göstəriş yoxdursa gündə 1,5-2 litr su içilməlidir. Təbii ki, bu su orqanizmin daxili mühitinin təminatı üçündür. Əgər "təmizlik imandandır" deyimini nəzərə alsaq, duş qəbul etmək və yuyunmaq da toksinlərin atılmasına xidmət edir. Toksinlərin atılmasına məneə olan vasitələrdən tərləmənin qarşısını alan dezodorantlar və antiperspirantlar istifadə edildikdə toksinləri bədəndə tutaraq zərər veririk.

*Gültəkin Əliyeva*
*"Klinik fənlər və hərbi tibb" kafedrasının dosenti,*
*ARİS tələbə elmi araşdırma qrupunun rəhbəri*

# Naxçıvan mətbəxinin fərqləndirici xüsusiyyətləri

Azərbaycanın qədim diyarlarından biri olan Naxçıvan zəngin tarixi, əsrarəngiz təbiəti və özünəməxsus mədəniyyəti ilə seçilir. Bu zənginliyin ən dadlı təzahürlərindən biri isə Naxçıvan mətbəxidir. Əsrlər boyu formalaşan kulinariya ənənələri bölgənin iqlimi, təbii sərvətləri və insanların həyat tərzi ilə sıx bağlıdır. Məhz buna görə də Naxçıvan mətbəxi Azərbaycan mətbəxinin ayrılmaz hissəsi olmaqla yanaşı, özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Naxçıvan mətbəxinin əsas özəlliklərindən biri yerli və təbii məhsullardan geniş istifadə edilməsidir. Bölgədə yetişdirilən tərəvəzlər, meyvələr, taxıl məhsulları və müxtəlif növ ət yeməklərin əsas tərkib hissəsini təşkil edir. Xüsusilə qoyun əti, müxtəlif göyərtilər və kənd təsərrüfatı məhsulları ilə hazırlanan yeməklər həm qidalılığı, həm də dadı ilə seçilir. Süfrəmizin ən məşhur nümunələrindən biri bozbaş, küftə, qovurma, müxtəlif aş növləri və sac yeməkləridir. Bununla yanaşı, bölgəyə məxsus bəzi yeməklər başqa yerlərdə nadir hallarda hazırlanır. Ənənəvi üsullarla bişirilən bu yeməklər qədim reseptləri bu günə qədər yaşatmağı bacarıb.

Naxçıvan mətbəxində xəmir yeməkləri də xüsusi yer tutur. Kətə, kökə, lavaş və təndir çörəyi kimi məhsullar gündəlik süfrələrin ayrılmaz hissəsidir. Xüsusilə təndirdə bişirilən çörək öz ətri və dadı ilə seçilir. Bu çörəyin hazırlanması təkcə yemək bişirmək deyil, həm də nəsildən-nəslə ötürülən bir ənənə hesab olunur.

Bölgənin zəngin meyvəçilik ənənəsi də mətbəxdə öz əksini tapır. Naxçıvan ərik, alça, üzüm, heyva və digər meyvələri ilə tanınır. Bu məhsullardan mürəbbələr, qurutmalar və müxtəlif şirniyyatlar hazırlanır.

Xüsusilə quru meyvələr həm gündəlik istifadədə, həm də qonaq süfrələrində geniş yer tutur. Mətbəxi fərqləndirən cəhətlərindən biri də yeməklərin sadə, lakin zəngin dadlara malik olmasıdır. Burada süni əlavələrdən çox, təbii məhsulların öz dadına üstünlük verilir. Məhz bu xüsusiyyət yeməkləri həm sağlam, həm də ləzzətli edir. Bu gün Naxçıvan mətbəxi təkcə bölgə sakinlərinin deyil, ölkəmizə gələn qonaqların da böyük marağına səbəb olur.

Ənənəvi reseptlərin qorunub saxlanılması və yeni nəsillərə ötürülməsi isə




bu zəngin kulinariya irsinin yaşadılmasına xidmət edir. Naxçıvan mətbəxi sadəcə yeməklər toplusu deyil, xalqın tarixini, mədəniyyətini və qonaqpərvərliyini özündə əks etdirən qiymətli bir mirasdır.

*Ayşən Adıgözəlova*
*Jurnalistika ixtisası üzrə*
*IV kurs tələbəsi*

# Dörd il əvvəl xəyal kimi görünən yolun sonu

Həyatda bəzi mərhələlər var ki, insanın xarakterinin formalaşmasında, düşüncə tərzinin dəyişməsində və gələcək yolunun müəyyənləşməsində xüsusi rol oynayır. Universitet həyatı da məhz belə mərhələlərdən biridir. Bu gün məzun olmağa hazırlaşan bir tələbə kimi geriyə baxanda anlayıram ki, universitet mənə sadəcə diplom deyil, həyat dərsi qazandırıb. Mən əslən Tərtər rayonundanam. Təhsil almaq məqsədilə ailəmdən, doğma mühitimdən ayrılıb başqa şəhərə gəlmişdim. İlk günlər hər şey mənə yad görünürdü. Yeni insanlar, yeni mühit, yeni qaydalar. Təbii ki, bu proses müəyyən çətinliklərlə müşayiət olunurdu. Amma zaman keçdikcə universitet mənim üçün sadəcə təhsil aldığım məkan deyil, özümü tapdığım, inkişaf etdirdiyim və həyatımın ən gözəl xatirələrini topladığım bir ünvana çevrildi. Jurnalistika ixtisasını seçərkən bu sahəyə olan marağımın məni hara aparacağını tam təsəvvür edə bilmirdim. Lakin universitetdə keçdiyim dərslər, müəllimlərdən aldığım biliklər və qazandığım təcrübələr bu peşəyə olan sevgimi daha da artırdı. Jurnalistika mənə hadisələrə fərqli prizmadan baxmağı, araşdırma aparmağı, insanlarla ünsiyyət qurmağı və ən əsası məsuliyyət hissini öyrətdi. Universitet həyatının mənə qazandırdığı ən böyük imkanlardan biri də fəaliyyət göstərmək və özümü sınamaq şansı oldu. Hələ birinci kursdan universitet mediasında könüllü fəaliyyətə başladım. Müxtəlif tədbirlərin işıqlandırılması, reportajların hazırlanması və media işinin müxtəlif tərəflərində iştirak etmək mənim üçün əvəzsiz təcrübə idi. Bu fəaliyyətlər sayəsində həm peşəkar bacarıqlar qazandım, həm də yeni dostlar və dəyərli tanışlıqlar əldə etdim. Tələbəlik illərimin ən önəmli dönəmlərindən biri isə ikinci kursdan etibarən Naxçıvan Televiziyasında çalışmağa başlamam oldu. Burada redaktor və aparıcı kimi fəaliyyət göstərmək mənə nəzəri biliklərimi praktikada tətbiq etmək imkanı yaratdı. Bəzən universitet dərsləri ilə iş həyatını paralel şəkildə davam etdirmək çətin olurdu. Gecə yarılarına qədər davam edən hazırlıqlar, imtahan stressi və iş məsuliyyəti yorucu görünə bilərdi. Amma bütün bu çətinliklər mənə vaxtı düzgün idarə etməyi, məsuliyyətli olmağı və qarşıma qoyduğum məqsədlərə doğru inamla addımlamağı öyrətdi. Universitet həyatı təkcə auditoriyalarda keçən dərslərdən ibarət deyil. Bu illər insanın özünü tanıdığı, dostluqlar qurduğu, uğursuzluqlardan dərs çıxardığı və uğurlarını qeyd etdiyi xüsusi bir dövrdür. Burada qazandığım dostlar, iştirak etdiyim tədbirlər, hazırladığım layihələr və yaşadığım bütün xatirələr mənimlə bir ömür qalacaq. Bu il məzun oluram. Bu cümləni yazmaq belə qəribə hissdir. Sanki dünən ilk dəfə universitetin qapısından içəri daxil olmuşdum. İndi isə həmin qapıdan məzun kimi çıxmağa hazırlaşıram. Universitet mənə sadəcə peşə qazandırmadı. Mənə öz gücümə inanmağı, qarşıma çıxan çətinliklərlə mübarizə aparmağı və xəyallarıma doğru addımlamağı öyrətdi. Bu gün geriyə baxanda anlayıram ki, bütün çətinliklərə baxmayaraq, universitet həyatı həyatımın ən dəyərli və unudulmaz mərhələlərindən biri olub. Məzuniyyət bir son deyil. Əksinə, yeni başlanğıcların ilk addımıdır. Universitetdə qazandığım biliklər, təcrübələr və xatirələr gələcək həyat yolumda mənə ən böyük yol yoldaşı olacaq.



# Sosial medianın gənclərin həyatına təsiri




Müasir dövrdə sosial media gənclərin həyatının ayrılmaz hissəsinə çevrilib. Texnologiyanın sürətli inkişafı ilə birlikdə insanlar arasında ünsiyyət formaları dəyişib, məlumat əldə etmək daha asan və əlçatan olub. Xüsusilə gənclər günlərinin böyük hissəsini müxtəlif sosial media platformalarında keçirirlər. Bu platformalar həm faydalı imkanlar yaradır, həm də müəyyən problemlərə səbəb olur. Sosial medianın ən mühüm üstünlüklərindən biri informasiyanın sürətlə yayılmasıdır. Gənclər dünyanın istənilən yerində baş verən hadisələrdən saniyələr içində xəbər tuta bilirlər. Təhsil, elm, mədəniyyət və digər sahələrlə bağlı məlumatlar əldə etmək əvvəlki dövrlərlə müqayisədə daha rahatdır. Bir çox tələbə və şagird dərslərinə kömək edən materialları sosial media vasitəsilə tapır, müxtəlif təlim və kurslar haqqında məlumat əldə edir. Bununla yanaşı, sosial media insanların bir-biri ilə əlaqə saxlamasını da asanlaşdırır. Uzaqda yaşayan dostlar və qohumlarla ünsiyyət qurmaq, fikir mübadiləsi aparmaq və yeni insanlarla tanış olmaq mümkündür. Gənclər öz maraqlarına uyğun icmalara qoşularaq bilik və təcrübələrini artıra bilirlər. Lakin sosial medianın mənfi tərəfləri də az deyil. Uzun müddət telefondan istifadə etmək vaxt itkisinə səbəb olur və gənclərin gündəlik fəaliyyətlərinə mənfi təsir göstərir. Bəzi hallarda sosial şəbəkələrə həddindən artıq bağlılıq dərs uğurlarının azalmasına, diqqətin yayınmasına və məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır. Digər mühüm problemlərdən biri kibertəzyiq və onlayn təhqirlər də gənclərin psixoloji sağlamlığı üçün ciddi təhlükə hesab edilir. Sosial medianın təsiri yalnız fərdi deyil, həm də sosial xarakter daşıyır. Bəzən virtual ünsiyyət real münasibətlərin yerini tutur və insanlar üz-üzə ünsiyyət bacarıqlarını zəiflədə bilirlər. Halbuki sağlam sosial münasibətlərin qurulması üçün canlı ünsiyyət böyük əhəmiyyət kəsb edir. Nəticə etibarilə, sosial media müasir həyatın vacib elementlərindən biridir və onun gənclərin həyatına təsiri danılmazdır. Bu təsir həm müsbət, həm də mənfi istiqamətdə özünü göstərir. Əsas məsələ sosial mediadan düzgün və məqsədyönlü istifadə etmək, onun təqdim etdiyi imkanlardan faydalanarkən yarada biləcəyi risklərdən qorunmağı bacarmaqdır. Gənclər vaxtlarını səmərəli idarə etdikdə və sosial mediadan şüurlu şəkildə istifadə etdikdə bu platformalar onların inkişafına və uğur qazanmasına müsbət töhfə verə bilər.

# Ruhun sakitlik tapdığı müqəddəs məkan

Naxçıvanın füsunkar təbiəti qoynunda yerləşən Əshabi-Kəhf ziyarətgahı Azərbaycanın ən müqəddəs və ən çox ziyarət olunan məkanlarından biridir. Əsrlər boyu bu yer insanların inam, ümid və mənəvi rahatlıq ünvanına çevrilmişdir. Dağların arasında yerləşən bu müqəddəs məkan təkcə dini baxımdan deyil, həm də tarixi və mənəvi dəyərinə görə xüsusi əhəmiyyət daşıyır. Ta qədim zamanlardan insanlar Əshabi-Kəhfə böyük hörmət və ehtiramla yanaşmışlar. Buraya gələn hər bir ziyarətçi öz qəlbində daşıdığı arzuları, duaları və diləkləri ilə bu müqəddəs məkana üz tutur. İnanca görə, burada edilən duaların qəbul olunacağına, insanların mənəvi rahatlıq tapacağına inanılır. Məhz buna görə də ziyarətgah yüz illərdir öz müqəddəsliyini qoruyub saxlayır. Əshabi-Kəhfin adı Qurani Kərimdə bəhs olunan Kəhf əhli ilə bağlıdır. Rəvayətə əsasən, öz inanclarını qorumaq üçün bir mağaraya sığınan gənclər Allahın möcüzəsi ilə uzun müddət yuxuda qalmış və illər sonra oyandıqda zamanın dəyişdiyini görmüşlər. Bu hadisə səbrin, inamın və Allahın qüdrətinin simvolu kimi qəbul edilir. Ziyarətgahın yerləşdiyi ərazi də öz gözəlliyi ilə insanı valeh edir.

Dağların əzəməti, təmiz hava və ətrafdakı sakitlik buraya gələn hər kəsə xüsusi hisslər yaşadır. Pillələri qalxdıqca insan sanki gündəlik həyatın qayğılarından uzaqlaşır, ruhən rahatlıq tapır. Burada hökm sürən səssizlik bəzən minlərlə sözdən daha çox məna ifadə edir. Əshabi-Kəhf təkcə bir ziyarətgah deyil, həm də keçmişlə bu gün arasında mənəvi bir körpüdür. Buraya gələn insanlar yalnız dua etmək üçün deyil, həm də öz daxili dünyaları ilə baş-başa qalmaq, düşünmək və mənəvi güc toplamaq üçün üz tuturlar. Hər daşında, hər qayasında əsrlərin izini daşıyan bu müqəddəs məkan insanlara səbirli olmağı, ümidini itirməməyi və inamla yaşamağı xatırladır. Bu gün də Əshabi-Kəhf ziyarətgahı öz müqəddəsliyini qoruyaraq minlərlə insanı qəbul edir. Zaman dəyişsə də, insanların bu məkana olan sevgisi və hörməti dəyişmir. Çünki Əshabi-Kəhf sadəcə bir mağara və ya ziyarətgah deyil, insanların qəlbində ümid işığı yandıran, onları mənəvi rahatlığa qovuşduran müqəddəs bir məkandır.



***Hazırladı:*** *Səbinə Elxanqızı - Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# Qaynadılan qurbağa sindromu, yoxsa tədricən təhlükəyə alışan cəmiyyət?



Müasir dünyada cəmiyyətlər sürətli texnoloji inkişaf, informasiya axınının intensivləşməsi və qlobal dəyişikliklərlə üz-üzədir. Bu dəyişikliklərin bir qismi insanların həyat keyfiyyətini yüksəltsə də, bəzən təhlükəli proseslər də səssiz və hiss edilmədən formalaşır. İnsanların bu cür dəyişikliklərə reaksiyasını izah etmək üçün istifadə olunan anlayışlardan biri də "qaynadılan qurbağa sindromu"dur.

Bu metafora belə izah olunur: əgər qurbağa qaynar suya atılarsa, o, təhlükəni dərhal hiss edərək sudan çıxmağa çalışar. Lakin su tədricən qızdırıldıqda temperaturdakı dəyişikliklərə uyğunlaşar və nəticədə təhlükənin qurbanına çevrilər. Qeyd etmək lazımdır ki, bu hadisənin bioloji baxımdan həqiqiliyi elmi dairələrdə mübahisə mövzusudur. Buna baxmayaraq, metafora insan davranışlarını və ictimai prosesləri anlamaq üçün geniş istifadə olunur.

Qaynadılan qurbağa sindromunun mahiyyəti ondan ibarətdir ki, insanlar qəfil baş verən təhlükələri daha asan dərk edib onlara reaksiya göstərə bildikləri halda, tədricən və mərhələli şəkildə baş verən dəyişikliklərə uyğunlaşır, onların doğura biləcəyi nəticələri isə çox vaxt gec anlayırlar. İlk baxışda sadə görünən bu yanaşma sosial, siyasi, iqtisadi və mədəni proseslərin təhlilində mühüm izah vasitəsinə çevrilir.

Tarixə nəzər saldıqda görmək olar ki, bir çox mühüm hadisələr və böhranlar birdən-birə meydana çıxmayıb. Böyük iqtisadi çətinliklər, ictimai narazılıqlar, siyasi böhranlar və hətta bəzi münaqişələr uzun müddət ərzində yığılan problemlərin nəticəsi olub. Lakin həmin dövrlərdə insanlar baş verən dəyişikliklərə tədricən alışdıqları üçün təhlükənin miqyasını tam dərk edə bilməyiblər.

Bu sindromun ən çox müşahidə olunduğu sahələrdən biri siyasətdir. Siyasi mühitdə dəyişikliklər çox vaxt addım-addım həyata keçirilir. Cəmiyyət qəfil və radikal dəyişikliklərə kəskin reaksiya göstərə bilsə də, mərhələli şəkildə tətbiq olunan qərar və islahatlara daha asan uyğunlaşır. Nəticədə əvvəllər qeyri-adi və qəbuledilməz görünən hallar zaman keçdikcə adi və normal qəbul edilməyə başlanır. İnsanlar hər yeni mərhələyə uyğunlaşdıqları üçün ümumi mənzərəni görməkdə çətinlik çəkirlər.

Media və informasiya məkanı da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müasir insan hər gün minlərlə informasiya ilə qarşılaşır. Bu informasiya bolluğu fonunda mühüm problemlərin diqqətdən yayınması mümkündür. Sosial şəbəkələrdə sürətlə yayılan xəbərlər, qısamüddətli trendlər və tez-tez dəyişən gündəm insanların diqqətini uzunmüddətli problemlərdən yayındıra bilir. Belə hallarda cəmiyyət baş verən dəyişiklikləri dərindən təhlil etmək əvəzinə, gündəlik informasiya axınının təsiri altında qalır.

Qaynadılan qurbağa sindromu iqtisadi sahədə də özünü göstərir. Məsələn, qiymət artımları və yaşayış xərclərinin yüksəlməsi uzun müddət ərzində tədricən baş verdikdə insanlar vəziyyətə uyğunlaşmağa çalışırlar. Lakin müəyyən müddətdən sonra həyat səviyyəsində ciddi dəyişikliklərin yarandığı aydın olur. Bu zaman məlum olur ki, əvvəlcə kiçik və əhəmiyyətsiz görünən dəyişikliklər əslində böyük nəticələr doğurub.

Sosial münasibətlərdə də bu sindromun izlərinə rast gəlinir. İnsanlar bəzən ailədə, dostluq münasibətlərində və ya iş mühitində yaranan problemləri uzun müddət görməzdən gəlirlər. Problemlər yavaş-yavaş dərinləşdikcə onlara alışır və vəziyyəti normal qəbul etməyə başlayırlar. Nəticədə münasibətlərdə yaranan böhranlar gözlənilməz təsir bağışlayır. Halbuki həmin böhranların təməli daha əvvəl qoyulmuş olur.

Mütəxəssislər hesab edirlər ki, bu sindromdan qorunmağın əsas yolu tənqidi düşüncənin inkişaf etdirilməsidir. İnsanlar hadisələri yalnız cari vəziyyətlə deyil, keçmiş dövrlərlə də müqayisə etməyi bacarmalıdırlar. Məhz müqayisə imkan verir ki, hansı dəyişikliklərin baş verdiyi və onların hansı nəticələrə gətirib çıxara biləcəyi daha aydın görünsün.

Bu məsələdə media savadlılığı da mühüm rol oynayır. Vətəndaşlar aldıqları informasiyanı təhlil etməyi, müxtəlif mənbələri müqayisə etməyi və hadisələrə fərqli baxış bucaqlarından yanaşmağı bacarmalıdırlar. Əks halda informasiya manipulyasiyası və birtərəfli məlumatlandırma insanların reallığı düzgün qiymətləndirməsinə mane ola bilər.

Jurnalistikanın əsas vəzifələrindən biri də məhz cəmiyyətin diqqətindən yayınan problemləri üzə çıxarmaqdır. Peşəkar jurnalistlər yalnız baş verən hadisələri çatdırmaqla kifayətlənməməli, həm də onların səbəblərini, nəticələrini və uzunmüddətli təsirlərini araşdırmalıdırlar. Araşdırma jurnalistikası bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Çünki cəmiyyət üçün təhlükə yarada biləcək proseslər çox vaxt məhz peşəkar araşdırmalar nəticəsində üzə çıxır.

Nəticə etibarilə, qaynadılan qurbağa sindromu insanlara və cəmiyyətə mühüm bir dərs verir: təhlükələr hər zaman qəfil meydana çıxmır, bəzən ən böyük risklər yavaş-yavaş formalaşır və insanlar onları hiss etmədən həmin dəyişikliklərə uyğunlaşırlar. Buna görə də baş verən hadisələri diqqətlə izləmək, tənqidi düşünmək və dəyişiklikləri zamanında qiymətləndirmək hər bir vətəndaşın məsuliyyətidir.

Hesab edirəm ki, yalnız bu halda cəmiyyət qarşılaşdığı problemləri vaxtında görə, onların qarşısını almaq və həlli üçün zəruri addımlar ata bilər. Əks təqdirdə, bizi təhlükəyə aparan proseslərin bir hissəsinə çevrildiyimizi çox gec anlaya bilərik.

*Səkinə Əhmədova*
*Jurnalistika ixtisası üzrə*
*III kurs tələbəsi*

# Gənclik xəyalı, yoxsa kütləvi yoluxma?

Son illərdə cəmiyyətimizin ən çox müzakirə olunan, bəlkə də gizlində hər kəsin daxili dünyasını sızıldadan bir sual var. İnsanlar, xüsusən də gənclər niyə ölkədən getmək istəyir? Sosial şəbəkələrin lentinə baxanda elə bir təssürat yaranır ki, elə bil hər kəs qaçmağa bir bəhanə, yol axtarır. Hava limanının beynəlxalq gediş terminalı gənclərin müqəddəs ziyarətgahına çevrilib. Bəs bu axının arxasında duran real səbəb nədir? Bu, həqiqətənmi "daha yaxşı gələcək" qurmaq naminə atılan şüurlu addımdır, yoxsa sadəcə dəbə çevrilmiş rəqabət, kütləvi yoluxma və "bəhsetmə" xəstəliyidir?



Əslində, xaricə getmək istəyinin təməlində duran ən böyük psixoloji amillərdən biri məhz dəb və "filankəsdən geri qalmamaq" meylidir. Bəli, bu, acı da olsa bir həqiqətdir. Sosial şəbəkələr olan instaqram, tiktok bizə bəzəkli, parıltılı bir Avropa və ya Amerika həyatı təqdim edir. Eyfel qülləsinin qarşısında qəhvə içən, Avropanın rəngli küçələrində velosiped sürən həmyaşıdlarını görən gənc dərhal daxili bir təşvişə düşür: "Mən niyə buradayam? Mən niyə ömür çürüdürəm?"

Bunun psixologiyada bir adı var, əslində. Həyatı qaçırmaq qorxusu. Gənclərin böyük bir qismi xaricə getməyin fəlsəfəsini, onun gətirəcəyi çətinlikləri dərk etmədən, sadəcə hamı gedir deyə bu dalğaya qoşulur. Gedənlərin profilindəki o bir neçə saniyəlik xoşbəxt videoların arxasında gizlənən təkliyi, mühacirət çətinliklərini, gündə saatlarla işləyib kirayə pulu çatdırmaq qayğılarını isə heç kim görmür, görmək də istəmir. Xaricə getmək artıq bir hədəf yox, bəziləri üçün sadəcə status simvoluna, "mən uğurluyam" demək formasına çevrilib.

Bizim cəmiyyətdə intellektual inkişafdan daha çox vizual uğur nümayişinə meyil güclüdür. Çox vaxt gənclər öz ölkələrində reallaşdıra bilmədikləri daxili potensialın günahını tamamilə mühitdə görürlər. Əlbəttə, bəzi sahələrdə imkanların məhdud olması danılmazdır. Lakin başqa pəncərədən yanaşsaq, görərik ki, bir çox gənc burada oxumaq, araşdırmaq, özünü inkişaf etdirmək üçün heç bir real cəhd göstərmədiyi halda, elə zənn edir ki, təyyarəyə minib başqa ölkəyə enən kimi möcüzə baş verəcək və o, dərhal dahi bir mütəxəssisə çevriləcək.

Bu bir növ məsuliyyətdən qaçışdır. "Mən burada heç nə edə bilmirəm, çünki burda mühit imkan vermir, amma xaricə getsəm, hər şey fərqli olacaq"düşüncəsi tam bir illüziyadır. İnsan öz daxili tənbəlliyini, hədəfsizliyini çamadanına qoyub hara aparırsa aparsın getdiyi yerdə də eyni problemlərlə üzləşəcək. Xaric sadəcə coğrafi məkandır, sehrli çubuq yox.

Ən ağrılı tərəfi isə budur ki, bu köç prosesi gənclərin ruhunda böyük bir boşluq yaradır. İnsan doğulduğu, böyüdüyü, dilinə, mədəniyyətinə bələd olduğu torpaqdan qopanda bəzən geri dönüşü olmayan mənəvi itkilər yaşayır. Qürbətdə "yad" olmaq, nə qədər pul qazansan da, hansı yüksək vəzifədə olsan da, o daxili yadlıq hissini yox etmir.

Bu gün gənclər azadlıq, sərbəstlik adı altında bəzən öz milli, mənəvi köklərindən, ailə bağlarından qaçırlar. Lakin unudurlar ki, kökü dərində olmayan ağac ən xırda qürbət rüzgarında sına bilər. Biz hamımız gediriksə, bəs bu torpaqları kim quracaq? Bu mədəniyyəti, bu tarixi, bu küçələrin ruhunu kim yaşadacaq?

Xaricdə təhsil almaq, dünya görüşünü artırmaq, fərqli mədəniyyətlər öyrənmək qəbahət deyil təbii ki, əksinə, çox yaxşı addımdır. Amma bu addım şüurlu olmalıdır.

Əgər xaricə nəsə öyrənib, vətənə, xalqa xeyirli biri kimi qayıtmaq ideyası ilə gedilirsə, bu, böyük ziyalılıqdır. Yox, əgər sadəcə canını qurtarmaq, bəlkə instaqramda daha maraqlı görünmək, "hamı gedir, mən də gedim" düşüncəsi ilə köç baş verirsə, bu qaçışdan başqa bir şey deyil. Və təəssüf ki, insanın özündən qaçışı heç vaxt uğurla nəticələnmir.

Həyat coğrafi koordinatların dəyişməsindən ibarət deyil. Həqiqi uğur və daxili hüzur, insanın harada olmasından asılı olmayaraq, öz kökünə, öz dəyərlərinə sahib çıxaraq özünü var edə bilməsidir.

*Elnurə Cəfərova*
*Jurnalistika ixtisası üzrə*
*IV kurs tələbəsi*

# GƏLƏCƏYİN SAHİBLƏRİ

## Tələbə auditoriyasındakı ideyalar sabah insanların həyatını dəyişən texnologiyalara çevrilir

Texnologiya sürətlə inkişaf etdikcə insanların gündəlik həyatında qarşılaşdıqları problemlərin həlli üçün yeni imkanlar yaranır. Bu imkanlardan səmərəli istifadə edənlər isə adətən fərqli düşünməyi bacaran, müşahidə aparan və cəmiyyətin ehtiyaclarını görərək onları innovativ həllərə çevirən insanlardır. Son illər Azərbaycanda da belə gənclərin sayı artır. Elmi araşdırmalara, texnologiyaya və süni intellektə maraq göstərən tələbələr arasında diqqət çəkən simalardan biri də Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Kompüter mühəndisliyi ixtisası üzrə IV kurs tələbəsi Dilsuz Zeynallıdır.

Universitet auditoriyalarında əldə olunan nəzəri bilikləri praktiki layihələrə çevirməyi qarşısına məqsəd qoyan gənc müəllif qısa müddət ərzində bir neçə innovativ layihə hazırlayıb. Onun müəllifi olduğu layihələr sosial texnologiyalar, süni intellekt və insan-kompüter qarşılıqlı əlaqəsi sahələrini əhatə edir. Dilsuz Zeynallının hazırladığı layihələr arasında xüsusilə "ON8 - Neural Gesture Recognition System" və "Enneagram" sistemləri diqqət çəkir.

Gənc mühəndislə söhbət zamanı hiss olunur ki, onun məqsədi sadəcə proqram yaratmaqla bitmir. O, texnologiyanın insanlara fayda verməsini, sosial problemlərin həllində vasitəyə çevrilməsini daha vacib hesab edir. Məhz bu yanaşma onun layihələrinin əsas xəttini təşkil edir.

Dünyada milyonlarla insan eşitmə və danışma məhdudiyyəti ilə yaşayır. Onların ən böyük çətinliklərindən biri gündəlik ünsiyyət zamanı qarşılaşdıqları maneələrdir. İşarə dilini bilməyən insanlarla ünsiyyət qurmaq bəzən onların öz fikirlərini ifadə etməsini çətinləşdirir. Bu isə həm sosial, həm də psixoloji problemlərə səbəb ola bilir.

Dilsuz Zeynallının müəllifi olduğu "ON8 - Neural Gesture Recognition System" məhz bu problemin həllinə yönəlib. Layihənin əsas məqsədi eşitmə və danışma məhdudiyyəti olan insanların cəmiyyətdə daha rahat ünsiyyət qurmasına imkan yaratmaqdır.

Müəllifin sözlərinə görə, sistem istifadəçinin bədən dili, jestləri, mimikaları və müəyyən refleks hərəkətlərini analiz edərək onları səsli nitqə çevirir. Bunun üçün xüsusi kameralar vasitəsilə istifadəçinin hərəkətləri izlənilir, toplanan məlumatlar süni intellekt alqoritmləri ilə emal olunur və nəticədə həmin hərəkətlərin mənası səsli formada təqdim edilir.

Layihənin maraqlı cəhətlərindən biri odur ki, sistem yalnız əl işarələrini tanımır. Üz mimikaları, göz hərəkətləri və bədənin müxtəlif reaksiyaları da analiz olunur. Bu xüsusiyyət istifadəçinin emosional vəziyyətini və fikrini daha dəqiq müəyyən etməyə imkan verir.

"Gündəlik həyatda danışma məhdudiyyəti olan insanlar öz fikirlərini qarşı tərəfə çatdırmaqda çətinlik çəkirlər. Biz çalışmışıq ki, bu maneəni texnologiyanın köməyi ilə aradan qaldıraq", – deyə Dilsuz Zeynallı bildirir.

Layihənin gələcək inkişaf mərhələləri də nəzərdə tutulub. Müəllif qeyd edir ki, növbəti mərhələdə sistemə flex sensorların inteqrasiyası planlaşdırılır. Bu sensorlar əl və barmaq hərəkətlərini daha dəqiq şəkildə qeydə alacaq və nəticədə sistemin həssaslığı artacaq.

Bundan əlavə, layihəyə mikrofon inteqrasiyası da nəzərdə tutulur. Bu halda qarşı tərəfin danışığı sistem tərəfindən qəbul ediləcək, emal olunacaq və istifadəçi üçün daha əlçatan formada təqdim ediləcək. Beləliklə, ünsiyyət bir istiqamətli yox, ikitərəfli olacaq.

Lakin Dilsuz Zeynallının fəaliyyəti yalnız bu layihə ilə məhdudlaşmır. Gənc müəllif süni intellektin müxtəlif sahələr-




də tətbiqi istiqamətində də araşdırmalar aparır. Onun üzərində işlədiyi digər layihələrdən biri "Enneagram" adlanır. Bu layihə süni intellekt əsaslı psixoloji analiz və şəxsiyyət qiymətləndirmə sistemidir.

Müasir dövrdə insanların psixoloji vəziyyətinin qiymətləndirilməsi, şəxsiyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsi və fərdi inkişaf istiqamətlərinin seçilməsi mühüm əhəmiyyət daşıyır. Lakin hər kəsin peşəkar psixoloji xidmətlərdən yararlanmaq imkanı olmur. "Enneagram" sistemi istifadəçilərin cavablarını və davranış modellərini təhlil edərək onların şəxsiyyət xüsusiyyətlərini müəyyənləşdirir, fərdi inkişaf istiqamətləri üzrə tövsiyələr təqdim edir.

Layihə təhsil müəssisələrində, insan resursları sahəsində, karyera planlaşdırılmasında və müxtəlif təşkilatlarda istifadə oluna biləcək potensiala malikdir. Müəllif hesab edir ki, süni intellekt texnologiyalarının düzgün tətbiqi insanların özlərini daha yaxşı tanımasına və potensiallarını daha səmərəli qiymətləndirməsinə kömək edə bilər.

Dilsuz Zeynallının hazırladığı layihələrin diqqətçəkən tərəflərindən biri də onların sosial yönümlü olmasıdır. Həm "ON8", həm də "Enneagram" insanların həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Birinci layihə ünsiyyət maneələrinin aradan qaldırılmasını, ikinci layihə isə insanların öz psixoloji xüsusiyyətlərini daha yaxşı anlamasını hədəfləyir.

Gənc mühəndisin əldə etdiyi nailiyyətlər onun uzunmüddətli araşdırmalarının nəticəsidir. O, müxtəlif texnologiyaları öyrənməklə yanaşı, cəmiyyətdə mövcud problemləri də müşahidə edir və onların həlli üçün yeni ideyalar üzərində işləyir. Məhz bu yanaşma onun layihələrinin həm texnoloji, həm də sosial əhəmiyyət qazanmasına səbəb olur.

Bu gün dünyanın inkişaf etmiş ölkələrində innovasiya və startap mədəniyyəti iqtisadi inkişafın əsas istiqamətlərindən biri hesab edilir. Azərbaycanda da gənclərin texnologiya sahəsində fəaliyyətinin genişlənməsi sevindirici haldır. Dilsuz Zeynallının layihələri göstərir ki, ölkəmizdə yetişən gənc mütəxəssislər müasir texnologiyaların imkanlarından istifadə edərək beynəlxalq səviyyədə maraq doğura biləcək ideyalar ortaya qoya bilirlər.

Onun müəllifi olduğu patent və müəlliflik hüququ ilə qorunan layihələr bir daha sübut edir ki, universitet auditoriyalarında formalaşan ideyalar gələcəkdə böyük yeniliklərə çevrilə bilər. Bu cür təşəbbüslər həm də ölkənin elmi və texnoloji potensialının göstəricisidir.

## NDU şagirdləri Beynəlxalq arenada

Təhsildə əldə olunan nailiyyətlər ölkənin gələcəyinin formalaşmasında mühüm rol oynayır. Xüsusilə məktəblilərin beynəlxalq olimpiadalarda qazandıqları uğurlar onların bilik və bacarıqlarının göstəricisi olmaqla yanaşı, təhsil müəssisələrində yaradılan mühitin də nəticəsi kimi qiymətləndirilir. Son illərdə Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbinin şagirdləri müxtəlif beynəlxalq müsabiqə və olimpiadalarda uğurlu nəticələr əldə edərək diqqət mərkəzinə düşüblər.

Bu uğurların davamı olaraq məktəbin şagirdləri HIPPO Beynəlxalq İngilis Dili Olimpiadasında yüksək nəticələr göstəriblər. Dünyanın müxtəlif ölkələrindən minlərlə məktəblinin iştirak etdiyi olimpiadanın Azərbaycan üzrə Milli Final mərhələsi keçirilib. Yarışda ölkə üzrə ümumilikdə 428 şagird iştirak edib. Yekun nəticələrə əsasən, 84 şagird Regional Final mərhələsində iştirak etmək hüququ qazanıb.

Sevindirici haldır ki, Naxçıvan Dövlət Universiteti nəzdində Beynəlxalq Kembric Məktəbinin şagirdləri də medalçılar sırasında yer alıblar. 7-ci sinif şagirdi Asif Axundzadə qızıl medal qazanaraq fərqlənib. Həmin sinfin şagirdləri Şəms İsayeva və Məhəmməd Yaqubov isə bürünc medala layiq görülüblər. Məktəbin 2-ci sinif şagirdləri də uğurlu nəticələri ilə seçiliblər. Atilla Həsənli və Ayan İsmayıl qızıl medal, İnci Bağırlı isə gümüş medal əldə edib.

Qazanılan nəticələr şagirdlərin ingilis dili üzrə biliklərinin, müəllimlərin peşəkarlığının və valideyn dəstəyinin uğurlu vəhdətinin göstəricisi kimi dəyərləndirilir. Qarşıda isə onları daha məsuliyyətli mərhələ gözləyir. HIPPO Olimpiadasının Regional Final mərhələsi Bakı şəhərində keçiriləcək. Bu mərhələdə Azərbaycanla yanaşı, Asiya və Yaxın Şərqin bir sıra ölkələrindən olan şagirdlər iştirak edəcəklər. Regional




mərhələni uğurla başa vuran iştirakçılar isə olimpiadanın ən yüksək mərhələsi olan Grand Finalda mübarizə aparmaq şansı qazanacaqlar. Dünya finalının İtaliyanın tarixi Spoleto şəhərində keçirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Beynəlxalq Kembric Məktəbinin şagirdləri daha bir nüfuzlu beynəlxalq yarışmada uğura imza atıblar. Almaniyanın Berlin şəhərində fəaliyyət göstərən Albert Einstein Təhsil Mərkəzi tərəfindən təşkil olunan Albert Einstein Elm Olimpiadasında məktəbin 18 şagirdi seçim mərhələsini uğurla başa vuraraq Qlobal Final mərhələsinə vəsiqə qazanıb.

Şagirdlərin "Science" – Elm bölməsi üzrə əldə etdikləri nəticələr onların elmi biliklərə olan marağını, tədqiqat bacarıqlarını və yaradıcı düşüncə qabiliyyətlərini bir daha nümayiş etdirib. Dünyanın müxtəlif ölkələrindən olan məktəblilərin qatıldığı bu yarışma gənclərin elmə marağının artırılması, innovativ düşüncənin təşviqi və beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi məqsədi daşıyır.

Qlobal Final mərhələsində NDU-nun Beynəlxalq Kembric Məktəbinin şagirdləri müxtəlif ölkələrdən olan həmyaşıdları ilə eyni platformada biliklərini sınayacaqlar. Bu isə onlar üçün yalnız yarış təcrübəsi deyil, həm də yeni biliklər qazanmaq, fərqli mədəniyyətlərlə tanış olmaq və beynəlxalq mühitdə öz potensiallarını nümayiş etdirmək imkanı yaradacaq.

Əldə olunan nailiyyətlər göstərir ki, Naxçıvanda müasir təhsil yanaşmaları və beynəlxalq standartlara əsaslanan tədris mühiti öz müsbət nəticələrini verməkdədir. Beynəlxalq Kembric Məktəbinin şagirdlərinin qazandıqları uğurlar təkcə məktəbin deyil, ümumilikdə region təhsilinin inkişaf göstəricilərindən biri kimi qiymətləndirilə bilər. Bu nəticələr gənc nəslin gələcəkdə elm, təhsil və müxtəlif sahələrdə ölkəmizi beynəlxalq səviyyədə uğurla təmsil edə biləcəyinə olan inamı daha da artırır.

*Hazırladı: Elnurə Cəfərova - Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

## ƏCƏMİ NAXÇIVANİ İRSİ

# Əcəmi memarlığının yadigarı: Yusif Küseyir oğlu türbəsi



Səməyə Rəsulova

Memarlıq abidələri daşa yazılmış tarix, xalqların mədəniyyət salnaməsi və sivilizasiyanın güzgüsüdür. Azərbaycan xalqının çoxəsrlik tarixi də torpağa həkk etdiyi memarlıq inciləri ilə zəngindir. Ölkəmizdə şəhərsalma mədəniyyətinin qədimliyini, milli memarlıq ənənələrinin yaşadılmasını və bu sahədəki müasir çağırışları rəhbər tutaraq Prezident cənab İlham Əliyev Sərəncam ilə 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etmişdir. Şəhərsalma sadəcə binaların quraşdırılması və yolların salınması deyil, o, insan həyatının keyfiyyətini yüksəldən sosial, mədəni və ekoloji mühitin vəhdətidir. Bu il Bakı şəhərinin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) ev sahibliyi etməsi də Azərbaycanın qlobal urbanizasiya proseslərində artan rolunun bariz nümunəsidir. Keçmişlə gələcəyin qovuşduğu bu şəhərsalma xəttinin ən parlaq səhifəsi isə orta əsrlər memarlığının zirvəsi sayılan Naxçıvan məktəbinə və onun banisinə məxsusdur. XII əsrdə mühüm ticarət və mədəniyyət mərkəzi olan, Atabəylər dövlətinin paytaxtı Naxçıvan şəhəri həm də özünəməxsus bir memarlıq məktəbinin beşiyinə çevrilmişdi. Orta əsr tarixçisi Həmdullah Qəzvininin "Nəqşi Cahan" (Dünyanın bəzəyi) adlandırdığı bu qədim şəhərdə İslam aləminin şah əsərləri ucaldılırdı. Bu məktəbin banisi və zirvəsi isə böyük sənətkar Əcəmi Əbubəkr oğlu Naxçıvani idi. Tanınmış sənətşünas Ə.V.Salamzadə Əcəmi dühası haqqında yazır: "Yaxın Şərqin bir çox memarlarının yaradıcılığına onun təsirini izləmək çətin deyil... Qərb dünyasında arxitektura sənəti hələ anonim səciyyə daşıyan bir dövrdə Əcəmi parlaq və təkrarolunmaz yaradıcı simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürünün nəhəngi kimi canlanır". Təsadüfi deyil ki, XIII əsrin tarixi mənbələri Əcəminin öz dövründə tayı-bərabəri olmadığı üçün "Şeyxül-mühəndis" (Mühəndislər başçısı) rütbəsi daşıdığını xəbər verir. UNESCO çərçivəsində 900 illik yubileyi qeyd olunan bu dahi sənətkarın Naxçıvanda yaratdığı dövlət kompleksinə Cümə məscidi, Eldənizlər sarayı, Qoşa minarəli baştağ və memarlığın incisi sayılan Möminə xatun türbəsi daxil idi. Möminə xatun türbəsi öz monumental ölçüləri, zərif həndəsi naxışları və mühəndislik həlli ilə bu gün də milli memarlığımızın ən böyük rəmzlərindən biri hesab olunur. Akademik araşdırmalara və tarixi faktlara nəzər saldıqda Əcəmi Naxçıvaninin bizə qədər salamat gəlib çatan ilk şah əsərinin Yusif Küseyir oğlu türbəsi olduğunu görürük.

***Şeyxlərin başçısı Yusif Küseyr oğlu***

Küseyr titulu daşıyan bir çox İslam və sufi alimləri yaşayıb. Hətta onlardan bəzilərinin adına türbələr də ucaldılıb. O şəxslərdən biri də məhz Yusif Küseyir oğlu olmuşdur. Aparılan təhlillər göstərir ki, 1162-ci ilin payızında dəfn olunmuş Yusif Küseyir oğlunun xatirəsinə türbə tikilib. Kitabədə ona verilən titullar onun kimliyini daha da yaxşı aydınlaşdırır; "Xacə" – Onun böyük tacir və görkəmli alim olduğunu, "Adlı-sanlı rəis" – Atabəylər dövləti dövründə Naxçıvan şəhərinin rəsmi hakimi (valisi) olduğunu, "Şeyxlər şeyxi" – Şəhərdəki ali ruhani təbəqəyə və sufi xanəgahlarına rəhbərlik etdiyini göstərir. Bu titul və epitetlərin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, Yusif Küseyir oğlu öz dövrünün yüksək vəzifəli dövlət xadimi və cəmiyyətdə böyük nüfuz qazanmış seçkin bir şəxsiyyəti idi. Bu səbəbdən onun qəbri üzərində Şeyxül-mühəndis tərəfindən belə bir əbədi abidə ucaldılmışdır. Türbə 2019-2020-ci illərdə dövlət tərəfindən əsaslı bərpa olunaraq gələcək nəsillərə ötürülmüşdür.

***Tədqiqatlarda Yusif Küseyir oğlu türbəsi***



Hacıfəxrəddin Səfərli

El arasında "Atababa günbəzi" kimi tanınan Yusif ibn Küseyir Türbəsi Naxçıvan şəhərinin Şahab məhəlləsində yerləşir. Türbə həm daxildən, həm də xaricdən səkkizguşəli şəkildə ucaldılmış və piramida şəkilli günbəzlə örtülmüşdür. Bu abidəni unikal edən əsas cəhət odur ki, üst piramida örtüyünün quraşdırılmasından 864 il keçməsinə baxmayaraq, o, zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmışdır. Bu, Əcəminin mühəndislik dühasının sübutudur. Abidədə Yaxın Şərq memarlığında geniş yayılan ikitəbəqəli günbəz örtüyü tətbiq olunmuşdur. Naxçıvanın tarixini və epiqrafik irsini dərindən araşdıran AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli qeyd edir ki, "Əcəmi Naxçıvaninin bizə qədər salamat gəlib çatan ilk şah əsəri məhz Yusif ibn Küseyir türbəsidir. Türbənin zahiri üzlərində taxçalar sadə kərpiclə çərçivələnmişdir. Səthlər isə bütün üzlərdə müxtəlif rəsmlərdən ibarət həndəsi ornament təşkil edən kərpiclərlə örtülmüş, səkkiz səthin hamısı müxtəlif şəkilli və ölçülü həndəsi ornamentlərlə bəzədilmişdir. Beləliklə, tağçaların daxili tamamilə kərpicdən yığılmış sıx həndəsi ornamentlərlə üzlənmişdir. Türbənin səthlərindəki ornament bəzəyinin səciyyəvi xüsusiyyəti onun ayrıca düzəldilərək, hazır şəkildə üzlərin səthinə bərkidilmiş ayrı-ayrı tavalardan tərtib olunmasından ibarətdir. Yəni bu ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, sonra gəc məhlulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində bərkidilmişdir. Yusif Küseyir oğlu türbəsi üzərində kərpic dekorun ən mürəkkəb və zəngin örnəkləri "girih" (düyün) adlanan xüsusi həndəsi ornamentlərlə yaradılmışdır. Səkkizguşəli gövdəsi olan bu abidənin üz tağçaları mürəkkəb quruluşlu kərpic girih naxışlar sistemi ilə örtülmüşdür. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlılardan, yaxud ulduzlardan, ya da onların hissələrindən) ibarətdir. Memarlıq dekorunda girih naxışların aparıcı rol oynaması baxımından Yusif Küseyir oğlu türbəsi Azərbaycan memarlığında yeni mərhələdir. Abidədə adi hörgünün kərpicli ornament bəzəyi ilə uyğunlaşdırılması nəticəsində qüvvətli bədii təsir yaranmışdır. Ornamentli tavaların bir-biri ilə qovuşuq yerləri diqqətlə hamarlandığından üzlərdən hər birinin səthi ayrı-ayrılıqda rəsminə görə fərqlənən bütöv xalçanı xatırladır. Yusif Küseyir oğlu türbəsi ikiqatlı olub, hər iki qatı planda səkkizguşəli formadadır. Abidənin sərdabə hissəsi yer altına salındığından türbə bayırdan birqatlı qüllə kimi görünür. Qərb tərəfdən pilləkənlərlə yenərək daxil olunan sərdabə ikiqülb plana uyğun olaraq ortası yastı olan günbəzlə örtülmüşdür. Günbəzin yuxarı hissəsi kəsilmiş dairəvi xonça ilə tamamlanmışdır. Türbənin yuxarı kamerasının döşəməsində düzəldilmiş dairəvi baca onun altında yerləşən sərdabəyə açılır. Səkkizguşəli türbənin səthlərinin hamısının yuxarı hissəsi qurşaq şəklində ayrılmış və orada iri hərflərlə böyük həcmli kitabə yerləşdirilmişdir. Oxunuşundan aydın olur ki, kitabənin mətni islamın müqəddəs kitabı Qurani-Kərimin III ("Ali-İmran") surəsindən götürülmüş 17, 18-ci ayələrdən və 19-cu ayənin kiçik bir hissəsindən ibarətdir. Bu ayədən sonra Qurani-Kərimin 112-ci ("əl-İxlas") surəsi yazılmışdır. Məqbərənin giriş qapısının sol tərəfindəki üzünün baş tərəfində yazılan kitabədə memar öz adını qeyd etmişdir: "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin (Naxçıvaninin-H.S.) əməlidir". Kitabədən göründüyü kimi, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani ilk yaradıcılıq məhsulu olan Yusif Küseyir oğlu türbəsinin üzərində özünü "Nəşəvi" nisbəsi (doğulduğu və ya yaşadığı yerin adı) ilə təqdim etmişdir. Nəşəva, Nəşəvi orta əsrlər zamanı Naxçıvan şəhərinin adlarından biri olmuşdur ".



***1162-ci ilin "Girih" naxışlarından şəhərsalma zirvəsinə***

Əcəmi Naxçıvaninin yaratdığı memarlıq irsi səkkiz əsrdən artıqdır ki, zamanın sınağından çıxaraq öz dəyərini qoruyub saxlayır. Möminə xatun türbəsi, Yusif ibn Küseyir Türbəsi yalnız XII əsr Azərbaycan memarlığının şah əsərləri deyil, həm də Naxçıvanın tarixi kimliyinin və şəhərsalma mədəniyyətinin canlı simvollarıdır. Prezident İlham Əliyevin Möminə xatun türbəsinin bərpası və konservasiyası, eləcə də Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi məqsədilə (900 illik yubileyinin keçirilməsi) Naxçıvan şəhərində abidəsinin ucaldılması haqqında imzaladığı sərəncamlar milli-mədəni irsimizin qorunmasına göstərilən yüksək diqqətin təzahürüdür. Naxçıvan şəhərində Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması və Möminə xatun türbəsində həyata keçirilən bərpa işləri yalnız tarixi abidələrin mühafizəsinə deyil, həm də Azərbaycanın zəngin memarlıq ənənələrinin gələcək nəsillərə çatdırılmasına xidmət edir. Bu addımların hər biri milli memarlıq tariximizə göstərilən dövlət qayğısının və keçmiş sənətkarlarımızın irsinə olan sonsuz ehtiramın rəmzidir.

# *Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar*

Yaz aylarında Şərqdə bir Günəş doğdu. O Günəş ki, Naxçıvanın mədəniyyətindən bəhs edən şahəsər... Şəhərin köksündə qanad açan bir göyərçin. O göyərçin ki, qanadları altında nəfəs alan ağacları qoruyan bir ana... İllərin izini özün özündə daşıyan mirvari. O mirvari ki, parlayanda sönür Günəş. Şairlərə ilham, rəssamlara zövq, yazarlara mənbə, bəzən də iki gəncə şahid, sirlərlə dolu xəzinə...Önündə dayanmışam, hüsnünü gəzir gözlərim. Qoy naxışlarında yorulsun xəyallarım, ülviliyindən dirçəlsin arzularım. Həyat tapsın buza dönmüş duyğularım... Səni seyr edənlərin nəzərləri mənim kimi onbucaqlı gövdənin üzərindəki həndəsi naxışlarda, bir labirintdəymiş kimi itsin. Qoy kitabə kəmərinin gizli sirrini axtarsınlar, gün düşəndə bərq vuran günbəzində işıq yolu tapsınlar. Hər kəs hər küncün pıçıldadığı tarixi eşitsin, göy üzünü xatırladan firuzəyi kaşılara toxunub heyran qalsın. Gəl, birlikdə axtaraq bu abidənin günümüzədək hansı fırtınalardan keçib necə gəlib çatdığını. Qoy xalq arasında dolaşan əfsanələr, nənələrin söylədiyi rəvayətlər cavab versin bizlərə. Xəbər alaq Atabəy Şəmsəddin Eldənizdən, Cahan Pəhləvandan... Soruşaq bu əsəri sadəcə kərpiclə, palçıqla deyil, riyazi bir dəqiqlik və sonsuz bir sevgi ilə toxuyan Memar Əcəmidən. O Əcəmi ki, bir qadına, bir anaya olan dərin ehtiramı daşın yaddaşına əbədi həkk etdi.Naxçıvanın yerdəki ulduzu! De görüm, niyə arabir belə qəmginsən? Niyə hərdən başının üstünü alır qara buludlar? Bəzən səmaya uzanıb uca Tanrı ilə, günəşlə həmsöhbət olursan tənhalığında. Amma yenə də gülürsən, hey sevinirsən keçən bayramlarda, rəngli festivallarda, şəhərin şən gurultusunda... Önündə dayananda zaman sanki dayanır. Gözəllik bəzən gizlənməyi sevir. Bu gün sən də sanki incə bir tül pərdə arxasında gizlənmisən. 840 illik bir möcüzə olaraq hələ də nəfəs alırsan. Memar Əcəminin dühası indi müasir ustaların əllərində yenidən cilalanır. Sən indi yeni baharını yaşayırsan. Aparılan bərpa işləri tarixin o solmuş sətirlərini yenidən yazmaq, daş yaddaşımızı gələcəyə sağ-salamat ötürmək cəhdidir. Gör neçə minilliyin təcəssümü, neçə dövrün şahidisən həzin nəğmələrin ahəngliyində. Səni Allaha səcdə edən bir möminə bənzətdim. Hüzurunda dayandıqca ruhum dincəlir, sanki divarlarından müqəddəs ayələrin sədası gəlir. Sən təkcə bir məqbərə deyilsən. Sən Türk-İs-



lam mədəniyyətinin möhtəşəm tacı, monumental bir tarix abidəsi, Əcəmi seyrangahında vüqarla ucalan Möminə Xatunsan! Sən bizim keçmişimizdən gələcəyimizə uzanan nurlu bir körpüsən.

***Hazırladı:*** *Səməyə Rəsulova - Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# Naxçıvanın gələcək memarları və mühəndisləri burada yetişir

Naxçıvan Dövlət Universitetinin digər binalarına nisbətən bir az uzaqda yerləşən bir fakültə var ki, bu fakültə 2026-cı ildə digər illərə nisbətən öz ilini



yaşayır. Dövlət başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə bu ilin "Şəhərsalma və Memarlıq" ili elan olunması bu təhsil məkanını daha da göz önünə gətirir. Buradakı tələbələr öz memarlıq və mühəndislik layihələrini təkcə layihə halında saxlamır, onları öz müəllimlərinin köməkliyi ilə kiçik modellər halına salır, onlar üzərində tədqiqatlar aparırlar. Memarlıq və Mühəndislik fakültəsinin tarixi 1988-ci ildən yüksək ixtisaslı mühəndis kadrların yetişdirilməsi ilə başlayıb. Fakültənin uğurları, görülən işlər və layihələrlə yaxından tanış olmaq üçün 2013-cü ildən dekan vəzifəsini icra edən riyaziyyat elmləri doktoru, professor Cavanşir Zeynalov bizə yaxından köməklik göstərdi. Fakültə 2001-2007-ci illərdə Arif Abbasovun, 2007-2013-cü illərdə isə Mübariz Nuriyevin rəhbərlik ilə neçə-neçə ixtisaslı memarın və mühəndisin yetişməsinə böyük töhfə verib. Fakültə 2004-cü ildə "Mühəndis" fakültəsinin nəzdində yenidən formalaşmış, zamanla tam müstəqil akademik qurum kimi möhkəmlənmişdir. Hazırda dekan müavini vəzifəsini isə 2022-ci ildən Tərxan Orucov icra edir. Fakültənin əsas akademik dayağını "Elektronika və informasiya texnologiyaları", "Nəqliyyat mühəndisliyi və "Texniki fənlər", "Memarlıq, "Meliorasiya və ekologiya mühəndisliyi" və nəhayət "Elektroenergetika mühəndisliyi" kafedraları təşkil edir. Bu kafedralar çərçivəsində İnformasiya texnologiyaları, İnformasiya təhlükəsizliyi (ingilis dilində), Kompüter mühəndisliyi, Kompüter mühəndisliyi (ingilis dilində), Elektrik və elektronika mühəndisliyi, Nəqliyyat mühəndisliyi, Ekologiya mühəndisliyi, Energetika mühəndisliyi, Meliorasiya mühəndisliyi, Memarlıq və proseslərin avtomatlaşdırılması kimi ondan artıq ixtisas üzrə kadr hazırlanır. İngilis dilində tədris seçiminin mövcudluğu fakültənin beynəlxalq standartlara uyğun inkişaf etdiyini açıq şəkildə göstərir. Meliorasiya və Ekologiya Mühəndisliyi kafedrası isə bu gün müxtəlif fənlərin tədrisini həyata keçirir. Elektroenergetika kafedrasının əməkdaşları isə 2021-2025-ci illər üçün energetika sənayesinin perspektiv inkişafında innovasiya texnologiyalarından istifadə mövzusunda 5 illik elmi-tədqiqat proqramını uğurla davam etdirirlər. Fakültədə bu gün Bolonya prosesi ilə müəyyənləşdirilmiş kredit sisteminə uyğun tədris planları əsasında yüzlərlə tələbə təhsil alır. Onların tədrisini yüksək ixtisaslı professor-müəllim heyəti həyata keçirir. Fakültənin dekanı, professor Cavanşir Zeynalov NDU-da keçirilən "Elm Günü"nə həsr olunmuş konfransda elmi fəaliyyətə verdiyi töhfəyə görə "İlin tədqiqatçısı" adına layiq görülmüş alimlər sırasında yer almışdır. Bu, fakültənin təkcə tədris deyil, elmi potensial baxımından da universitetdə ciddi yer tutduğunu bir daha sübut edir. Fakültə öz tələbələrini real iş dünyasına hazırlamaq üçün ölkənin aparıcı dövlət qurumları ilə sıx əlaqə saxlayır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti, "Naxçıvan Dəmir Yolları" MMC, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Memarlar Birliyi fakültənin daimi tərəfdaşları arasındadır. Bu əməkdaşlıq tək sənəd üzərində qalmır, fakültənin məzunları bu qurumlarda çalışaraq Naxçıvanın infrastrukturunu, enerji şəbəkəsini, yollarını və binalarını inşa edir, idarə edirlər. Beynəlxalq əlaqələr baxımından da fakültə fəal mövqe tutur. Energetika mühəndisliyi ixtisası 2008-ci ildən fakültənin tərkibində yaradılıb və həmin ildən bu yana məzunlar bu sahənin müxtəlif vəzifələrini tutublar. Tələbələr xarici ölkələrdə müntəzəm olaraq istehsalat təcrübəsi keçirirlər: 2021-ci ildə Almaniyanın Vismar şəhərində külək və günəş enerji qurğuları ilə yaxından tanış olublar, 2022-ci ildə İtaliyanın Florensiya şəhərindəki "Fimer" şirkətinin təlim mərkəzində invertorların iş prinsipi və günəş elektrik stansiyalarının fəaliyyəti üzrə dərin bilik əldə ediblər. Bu il isə Energetika mühəndisliyi ixtisasının IV kurs tələbələri Türkiyənin Trabzon şəhərindəki Qaradəniz Texniki Universitetinin nəzdindəki Energetika fakültəsində istehsalat təcrübəsi keçiblər. Fakültə ərazisindəki mini hibrid enerji stansiyası 10 KVt-lıq külək enerji qurğusu və 3,3 KVt-lıq günəş panelləri tələbələrin dərs zamanı əyani şəkildə tanış olduğu canlı tədris platformasına çevrilib. Fakültə ilk vaxtlarda bu qurğulardan alınan enerji hesabına öz elektrik ehtiyacını ödəyirdi. 2025-ci ildə fakültədə keçirilən Beynəlxalq Memarlar Günü tədbiri çərçivəsində tələbələrin əl işlərindən ibarət sərgi nümayiş etdirilmiş, fəallıqları ilə seçilən tələbələr diploma təltif olunublar. Bundan başqa, universitetin rektorunun göstərişi ilə 2026-cı il ərzində universitetin



nəzdində Memar Əcəmi adına Yaradıcılıq Mərkəzinin yaradılmasını, həmçinin Naxçıvan Dövlət Universiteti ilə İstanbul Memar Sinan Universiteti arasında başlanan əməkdaşlığın tələbə və akademik mobillik proqramları, birgə tədqiqatlar istiqamətində inkişaf etdirilməsinin planlaşdırdığının açıq göstəricisidir. Fakültənin maddi-texniki bazası da bu genişmiqyaslı fəaliyyətin möhkəm dayağına çevrilib. Burada İncəsənət və memarlıq tarixi, Robototexnika kabinəsi, Memarlıq muzeyi, Dəmiryol stansiyalarının və qatarların hərəkətinin avtomatlaşdırılması, Alternativ enerji mənbəyi, Yarımkeçirici fizikası, Yüksək gərginlik, Elektronika və STEAM, Kibertəhlükəsizlik laboratoriyası, Dizayn və kompüterlə təmin olunmuş proqramlaşdırma kabinəsi fəaliyyət göstərir. Fakültə həyatı yalnız akademik çərçivədə qalmır, burada Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti, İdman şurası və müxtəlif ixtisaslara uyğun dərnəklər də aktiv şəkildə çalışır. Fakültəni gəzərkən tədris ilinin sonu olmasına baxmayaraq binalarda sükut yox, aktiv bir iş həyatı hiss olunurdu. Kompüterlə təmin olunmuş imtahan otağının qapısı arxasında tələbələr ekranlara dikilmiş, öz biliklərini dərs ilinin sonlarında test edir, digər otaqlarda isə tələbələr yarım qalmış layihələrini üzərində həvəslə çalışırdılar. Fakültənin məqsədyönlü yanaşmalarından biri də məhz biliyin yalnız kağız üzərindəki cavablarda deyil, həm də dərs ili müddətində real layihələrdə, praktiki nəticələrdə sınanması üzərində qurulub. Ətrafa nəzər saldıqda koridorlar boyu tələbələrin işlədiyi layihələrdən ibarət sərgi insanın diqqətini daha çox özündə cəmləyir. Kiminin alternativ və bərpaolunan enerji mənbələrinin kiçik modelləri, kiminin öz müəllifi olduğu tarixi memarlıq işlərinin, kiminin isə robotexniki layihələri dəhliz boyu uzanan sərgidə, şüşə altında sərgilənməkdədir. Bu həm tələbələrin layihələndirməyə olan marağının artmasına, həm də fakültənin gördüyü işləri açıq şəkildə göz önünə gətirməyə imkan yaradır. Emalatxanalar isə həmin əl işlərinin necə ərsəyə gəldiyini göstərən əsas məkanlardan biridir. İçəri dağınıq olsa da, həmin dağınıqlıqda gözümüzə velosiped təkərlərindən, avtomobil oturacağından və kiçik mühərrikdən ibarət avtomobil layihəsi, kiçik robotlar və müxtəlif texniki avadanlıqlar insanın diqqətini özünə çəkir. Bunların layihə rəhbəri isə məhz tələbələrin özləridir. Bəzi otaqlarda isə layihələr kağız üzərində gələcəkdə reallaşdırılmaq ümidi ilə hələ də gözləməkdə və təkmilləşdirilməkdədir. Layihələrin hazırlandığı emalatxanalarda isə gözümüzə Naxçıvanın tarixi qalaları, Hüseyn Cavid məqbərəsi kimi müxtəlif tikililər, tarixi məscidlər, ağacdan müxtəlif oyma əşyaları emalatxanaya ayrıca gözəllik verir. İkinci mərtəbənin dəhlizində isə bizi Naxçıvanın tarixi memarlıq incisi sayılan Möminə xatun türbəsinin böyük modeli qarşılayır. Bu mərtəbədə də dəhlizlər tələbələrin layihələrindən ibarət müxtəlif sərgilərdən ibarətdir. Fakültə dekanının qəbul otağı isə sanki fakültənin indiyədək imza atdığı uğurlardan ibarət sərgi salonunu xatırladır. Dolabların üzərində səliqə ilə düzülmüş kuboklar və mükafatlar fakültənin prestijindən bir başa xəbər verir. Bütün bunlar bir yerdə götürüldükdə Memarlıq və mühəndislik fakültəsi təkcə bir tədris məkanı deyil, gələcəyin memarlarını, mühəndislərini və texnoloqlarını yetişdirən canlı bir yaradıcılıq mühitinə çevrilib. 1988-ci ildən bu yana qət etdiyi yol, qurduğu beynəlxalq tərəfdaşlıqlar, işlədib hazırladığı onlarca layihə və yetişdirdiyi yüzlərlə məzunun hər biri fakültənin nə qədər dərin köklər üzərində dayandığını göstərir. "Şəhərsalma və Memarlıq" ili kimi simvolik bir ildə diqqətləri özünə çəkən bu fakültə, gələcəyə yalnız kağız üzərindəki planlarla deyil, öz müəllifləri olduqları modellərlə, layihələrlə və ürəklərindəki həvəslə addımlayan tələbələrlə inamlı baxır.



***Hazırladı:* Rafiq Təhməz - Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi**

# NDU tələbəsi Naxçıvan ədiblərinin əsərlərini dünya oxucusuna tanıdır

Naxçıvan Dövlət Universitetinin Stomatologiya fakültəsinin IV kurs tələbəsi Mem Doğuhan Çakır Naxçıvanın ədiblərinin əsərlərini tərcümə edərək beynəlxalq platformalarda yayımlayır. Əvvəllər film və seriallar üçün altyazı hazırlayan tələbə universitet illərində diqqətini daha çox təhsilinə və Azərbaycan dili üzrə biliklərinin inkişafına yönəldib. Onun sözlərinə görə, Cəlil Məmmədquluzadənin ev-muzeyinin önündən hər gün keçməsi böyük yazıçının yaradıcılığına maraq göstərməsində mühüm rol oynayıb. Eyni zamanda Azərbaycan klassiklərinin əsərlərinin qlobal məkanda kifayət qədər əlçatan olmaması və Azərbaycan türkcəsi üzərində praktika aparmaq istəyi bu təşəb-büsün formalaşmasına səbəb olub. Layihənin mahiyyətindən danışan Mem Doğuhan Çakır bildirib: “Mən onsuz da kitab oxuyan biriyəm, amma bu adların heç birini eşitməmişdim, üstəlik coğrafiyalarımız bu qədər yaxın ikən. Bəlkə də bu mənim qüsurumdur, bilmirəm. Lakin onların təzyiq və senzura altında yazdıqlarını öyrənəndə niyə (dünya üçün) “itkin” düşdüklərini anladım, bu mənə məntiqli gəldi. Bir tədqiqatçı Qafqaz və ya Yaxın Şərq yazıçılarından məlumat axtaranda



qarşısına Hüseyn Cavidin və ya Məmmədquluzadənin kitabları da çıxsın, onlara asanlıqla çata bilsin istədim”. Hazırda tələbə “Voices of Nakhchivan” (“Naxçıvanın səsləri”) adlı ingilisdilli toplu üzərində işləyir. Layihə çərçivəsində Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” əsəri artıq tərcümə olunaraq “Ama- zon” platformasında nəşr edilib. Hüseyn Cavidin “İblis” faciəsinin tərcüməsinin böyük hissəsi tamamlanıb və yaxın vaxtlarda yayımlanması nəzərdə tutulur. Bundan əlavə, Məmməd Səid Ordubadi və Eynəli bəy Sultanovun əsərlərinin də ingilis dilinə uyğunlaşdırılması planlaşdırılır. Tərcümə prosesinin xüsusilə Hüseyn Cavid yaradıcılığı ilə bağlı hissəsi- nin çətin olduğunu bildirən M.D.Çakır qeyd edib: “Cavidin 1918-ci ildə Şeytanın dili ilə dediyi “mənə ehtiyac yoxdur, siz özünüz kifayətsiniz” fikri bu gün də aktualdır. Bu əsərlər rahat masa arxasında deyil, sürgün və təzyiqlər altında yazılıb. O ağırlıq mətnə hopub və mən bunu dünya oxucusuna hiss etdirməyə çalışıram”. Mem Doğuhan Çakır bildirib ki, layihə kommersiya məqsədi daşımır. Onun sözlərinə görə, ”Amazon” platforması hazırda daha çox şəxsi portfolionun bir hissəsi kimi istifadə olunur. Gələcəkdə isə bütün tərcümələrin ödənişsiz platformalarda paylaşılması nəzərdə tutulur.

# Zamanın ovcundakı şeş-qoşa

Zaman hər kəs üçün eyni sürətlə axmır. İşə tələsən adamın qolundakı saatın tətiklədiyi təlaşla, müəllim danlağından qorxan tələbənin ürək döyüntüləri eyni dəqiqələrlə ölçülmür. Xəstəxana divarlarındakı o soyuq səssizlikdə ananın göylərə sığmayan çarəsiz duaları və bir cərrahın həyatla ölüm arasındakı bircə saniyəsi də zamanı öz ovcuna almaq, onu dayandırmaq istəyir. Zaman hər kəsi fərqli qəliblərə sığdırmağa çalışsa da, zamanın son bir adında – yaşlılıqda, ölümdə birləşdirir. O gün zamanın tamamilə fərqli bir ritmi ilə üzbəüz gəlib, dondurulmuş bir portretə qonaq oldum, bu istəyimə də səbəb deyəsən tələsik addımlarım idi.



Və beləcə Naxçıvan Şəhər Təqaüdçülər klubuna yol aldıq. Klubun qapısını açanda çöldəki o tələsik dünya qapının arxasında qaldı, addımlarım bir az yavaşladı, bu dəfə dayanmalı idim, çünki orada zaman yaraları sığallamır, sadəcə domino daşlarının masaya dəyən quru, kəskin səslərində dondururdu. Başda mənə yad görünən o qırışlı simalar, əslində illər əvvəl bu oyunları eyni uşaq inadı ilə oynayan gənclərin zamanın içində asılı qalmış kölgələri idi. Onların simalarında özümü, özümdə isə onları gördüm.

Hər gülüşdə bir tufanın sakitliyini seyr edirdim, görəsən, bu gülüşlər hansı ağrıların mənzilidir? Zamanın xəritəsini cızmış o titrək, damarları qabarmış əllərin atdığı hər zər həyatın onlara verdiyi, sınağa çəkdiyi yolun təcəssümü imiş. Tək bu əllər yox, lakı tökülmüş bu şahmat taxtası, küncləri yeyilmiş bu nərd də zamanın ən sadiq şahidləri idi. İndi o daşları atarkən titrəyən barmaqlar bəlkə də illər əvvəl ilk sevgi məktubunu yazarkən həyəcanın əsirinə çevrilən o gənc əllərlə eynidir. Ən ağrılı tərəfi də bunu bilməməkdir... Zaman hissləri qırışlara çevirərkən, həyat taxtası üzərindəki bəxti də zərlərə tapşırır. Bəzən şeş-qoşa gəlir bəxt, bəzən isə yek-qoşa... Bəlkə də, onlar o taxtada sadəcə oyunu yox, talelərini görürlər, müdrik baxışlar artıq anlayıb ki, zər nə gətirirsə-gətirsin, bu, uzun bir sınağın cəmi bir anıdır. Otağın künclərindən Sərraf Şiruyənin misraları da süzülür sanki:

Bu fələknən nərd atasan,  
Şeş-beş verən zərin ola.  
Ortalığa bəxt qoyalar,  
Aparmağa sərin ola.

Kim bilir, bu insanların həyatında nə qədər “şeş’ləri, nə qədər “yek’ləri olub... İllərdən rəng alan o geyimlər də onlarla bərabər qocalıb. Bir vaxtlar bəlkə də ən dəyərli görüşlər üçün geyinilmiş o pencəklər,



dirsəkləri sürtülüb parıldayan o köhnə parçalar zamanın qamətini əydiyi bu kişilərlə birgə eyni dilsiz tənhalığa bürünüblər. Geyimlər də qocalırmış... Tək gənclik yox, həm də uşaqlığın o saf, həssas anları boylanırdı qırışların arasından. Sanki böyümüş uşaqlardırlar... Uşaqlar zamanı ölçməyi bacarmaz, oyunlarla vaxt



öldürərlər. Bu “uşaqlar” isə zamanın qədrini hamıdan yaxşı bilsələr də, eyni uşaq inadı ilə oyunun içinə sığınırlar, çünki bilirlər ki, oyunda nə qədər güclü həmlələr etsən də sonda şah da, piyada da eyni qutuya qoyulur. Və beləcə: şah-mat. Həyatın amansız qanunu – heç var olmamış kimi unudulmaq... Həyatın çarxı elə amansız fırlanır ki, hesabında nə varsa gəncliyini də, sevgilərini də, o titrəyən əllərlə yazılmış məktubları da özüylə aparır, beləcə fiqurlar bir-bir eyni qutuya yığılır, hansı fəndləri, hansı üstünlükləri qazandırmasına baxmayaraq... Bəzi oyun gedişləri də bir ömür dərs niyyətində qalır. Mən otaqdan çıxanda Mirvasif babanın gülərək ovcuma sıxdığı o konfet kağızı xışıldayanda həm o dövrün sevgisinin ən saf halı, həm də bir dövrün bitməkdə olan kədəri ruhumun ən dərinlərindəki yaşlı nostaljik uşağı da oyatdı.

Çünki qarşımdakı o insanlar bitməkdə olan bir tarixin son nümayəndələri, o konfet isə bir nəslin ovcuma qoyduğu ən zərif vida nişanı idi... Zaman hamı üçün eyni axmır, kimimiz üçün tələsməkdir, kimimiz üçün isə sadəcə bir ovuc konfet qədər ömürdən bir parça səmimiyyət oğurlamaq...

***Hazırladı:* Nəzrin Abbaslı - Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi**

Baş redaktor:
**Şəhla Şirəliyeva**
*shehlashiraliyeva@ndu.edu.az*

**Ünvan:** AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
*yenifikir.ndu@gmail.com*

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 350**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
*“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*